# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 24 (3634) Cümə axşamı / 9-15 iyul 2026-cı il Qiyməti 40 qəpik


# ABŞ - Azərbaycan tərəfdaşlığında yeni mərhələ

***Son dövrlər Azərbaycan-ABŞ münasibətlərində müşahidə olunan canlanma, xüsusilə Prezident Donald Tramp administrasiyasının yenidən hakimiyyətə qayıdışı ikitərəfli əlaqələrin inkişaf perspektivləri ilə bağlı müzakirələri aktuallaşdırıb. Enerji təhlükəsizliyi, regional sabitlik, nəqliyyat dəhlizləri və Azərbaycan-Ermənistan sülh prosesi fonunda Vaşinqtonun Cənubi Qafqaza marağının artdığı müşahidə olunur. Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampa ABŞ-ın Müstəqillik Günü münasibətilə ünvanladığı təbrik məktubu da iki ölkə arasında siyasi dialoqun davamlılığının göstəricisi kimi qiymətləndirilir. Politoloq Rəşad Bayramovun sözlərinə görə, Azərbaycan-ABŞ münasibətləri hazırda çoxqatlı və praqmatik məzmun daşıyan əməkdaşlıq mərhələsindədir: "Azərbaycan-ABŞ münasibətlərini yalnız klassik diplomatik əlaqələr və ya enerji əməkdaşlığı çərçivəsində qiymətləndirmək düzgün olmazdı.***



Münasibətlər son illərdə, xüsusilə Donald Trampın yenidən hakimiyyətə qayıdışından sonra təhlükəsizlik, regional sabitlik, iqtisadi əməkdaşlıq və geosiyasi koordinasiya elementlərini də özündə birləşdirən daha geniş format alıb. Ənənəvi olaraq enerji sahəsində güclü tərəfdaşlıqla seçilən münasibətlər artıq daha böyük geosiyasi gündəliyi əhatə edir. Xüsusilə Cənubi Qafqazda formalaşan yeni reallıqlar fonunda Azərbaycan ABŞ üçün yalnız enerji tərəfdaşı deyil, həm də regional sabitliyin təmin olunmasında mühüm aktor kimi çıxış edir". Politoloq bildirir ki, strateji tərəfdaşlıq anlayışı da məhz bu məqamda xüsusi əhəmiyyət kəsb edir:

"Strateji tərəfdaşlıq o deməkdir ki, əməkdaşlıq yalnız iqtisadi layihələrdən ibarət deyil. Bu münasibətlər regional təhlükəsizlik arxitekturasında koordinasiya elementlərini də əhatə edir. Tərəflər arasında formalaşan dialoq mexanizmləri dəyişən beynəlxalq mühitə uyğun şəkildə münasibətlərin çevik inkişafına imkan yaradır. Bu gün enerji təhlükəsizliyi, Orta Dəhliz layihəsi, qlobal nəqliyyat marşrutlarının şaxələndirilməsi kimi məsələlər Azərbaycanın ABŞ üçün strateji əhəmiyyətini daha da artırır. Vaşinqton Azərbaycanı Avrasiya məkanında mühüm tərəfdaş kimi qiymətləndirir". R.Bayramovun fikrincə, regionda dəyişən geosiyasi vəziyyət də ikitərəfli münasibətlərin inkişafını şərtləndirən əsas amillərdəndir: "Rusiya-Ukrayna müharibəsindən sonra qlobal geosiyasi mənzərə ciddi şəkildə dəyişib. Enerji marşrutları, logistika xətləri və regional tərəfdaşlıqlar yenidən nəzərdən keçirilir. Belə bir şəraitdə Cənubi Qafqazın əhəmiyyəti artıb. Vaşinqton üçün region artıq yalnız lokal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu məkan deyil. Cənubi Qafqaz Avrasiya nəqliyyat sisteminin mühüm hissəsinə çevrilir. Bu baxımdan Azərbaycanın geostrateji mövqeyi ABŞ üçün əlavə əhəmiyyət qazanır və bu da siyasi dialoqun intensivləşməsinə səbəb olur". Politoloq Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampa ünvanladığı 4 iyul təbrik məktubunun da siyasi əhəmiyyət daşıdığını bildirib: "Liderlər arasında təbrik məktubları və mesajlaşmalar diplomatik münasibətlərin mühüm komponentlərindən biridir. Prezident İlham Əliyevin Donald Trampa ünvanladığı təbrik məktubu da ilk növbədə qarşılıqlı hörmətin və siyasi dialoqun davamlılığının ifadəsi kimi qiymətləndirilməlidir.

Belə mesajlar ikitərəfli münasibətlərin ümumi atmosferini formalaşdırır, tərəflərin əməkdaşlığın inkişafında maraqlı olduqlarını nümayiş etdirir. Diplomatik praktikada bu cür məktublaşmalar siyasi kommunikasiya kanallarının açıq saxlanılması baxımından xüsusi rol oynayır".

> *Prezident İlham Əliyevin Donald Trampa ünvanladığı təbrik məktubu da ilk növbədə qarşılıqlı hörmətin və siyasi dialoqun davamlılığının ifadəsi kimi qiymətləndirilməlidir*

> *Azərbaycanla ABŞ arasında formalaşmış strateji tərəfdaşlıq artıq təkcə enerji sektorunu deyil, rəqəmsal iqtisadiyyat, innovasiya, yaşıl enerji və yüksək texnologiyalar kimi yeni istiqamətləri də əhatə edir*

Ekspert ABŞ-nin Azərbaycan-Ermənistan sülh prosesinə marağının da təsadüfi olmadığını vurğulayıb:

"Vaşinqton anlayır ki, Cənubi Qafqazda uzunmüddətli sabitliyin təmin olunması həm enerji layihələrinin, həm də beynəlxalq nəqliyyat marşrutlarının təhlükəsiz fəaliyyəti baxımından vacibdir. Buna görə ABŞ sülh prosesində təşviqedici və dəstəkləyici rol oynamağa çalışır.

Ancaq istənilən halda sülh prosesinin taleyi ilk növbədə Azərbaycan və Ermənistanın siyasi iradəsindən asılıdır. Xarici aktorlar yalnız bu prosesi dəstəkləyə və təşviq edə bilərlər". Rəşad Bayramov hesab edir ki, ABŞ-nin regiondakı fəallığı yeni geosiyasi balansın formalaşmasına da təsir göstərir: "Bu gün regionda mürəkkəb və çoxvektorlu geosiyasi proseslər gedir. Burada müxtəlif güc mərkəzlərinin maraqları kəsişir. Belə bir şəraitdə Azərbaycan balanslaşdırılmış xarici siyasət kursu yürüdərək həm milli maraqlarını qorumağa, həm də müxtəlif tərəfdaşlarla əməkdaşlığı inkişaf etdirməyə çalışır. Məhz bu praqmatik yanaşma Azərbaycanın beynəlxalq mövqelərini gücləndirir və ölkəyə dəyişən geosiyasi şəraitdə daha geniş manevr imkanları yaradır. ABŞ-la münasibətlərin inkişafı da bu siyasətin mühüm istiqamətlərindən biridir".

■ **Milli Məclisin deputatı Vüqar Bayramov Hafta.az-a açıqlamasında bildirir ki, Azərbaycanla ABŞ arasında formalaşmış strateji tərəfdaşlıq artıq təkcə enerji sektorunu deyil, rəqəmsal iqtisadiyyat, innovasiya, yaşıl enerji və yüksək texnologiyalar kimi yeni istiqamətləri də əhatə edir.**

Səh. 2

MÜSAHİB

## Qadağa deyil, müdafiə mexanizmi

***Son illər rəqəmsal texnologiyaların sürətli inkişafı uşaqlar üçün yeni təhsil və inkişaf imkanları yaratmaqla yanaşı, onların təhlükəsizliyi ilə bağlı yeni çağırışları da gündəmə gətirib. Kiberbullinq, onlayn istismar, zərərli məzmun, rəqəmsal asılılıq və şəxsi məlumatların təhlükə altına düşməsi artıq dünyanın əksər ölkələrində dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib. Azərbaycanda da bu istiqamətdə mühüm addım atılaraq sosial şəbəkələrdə yaşın təsdiqi mexanizmlərinin tətbiqini nəzərdə tutan qanun dəyişiklikləri Milli Məclisdə üçüncü oxunuşda qəbul edilib.***



**Kəmalə Aşumova,**
"Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin sədri

*Uşaqları sosial şəbəkələrdən uzaqlaşdırmaq yox, rəqəmsal mühitdə təhlükəsizliyini təmin etmək lazımdır*

Səh. 3

TEXNOLOGİYA



## Azərbaycanın yeni rəqəmsal inkişaf düsturu

■ Vahid platforma vaxta qənaət, əlçatanlığın artırılması və xidmətlərin daha operativ göstərilməsi deməkdir

■ Proseslərin tam rəqəmsallaşması idarəetmədə şəffaflığı kəskin artıraraq Azərbaycanın beynəlxalq elektron hökumət reytinqlərindəki rəqabətədavamlı mövqeyini keyfiyyətcə yeni mərhələyə yüksəldir

■ Nəticə etibarilə Azərbaycan dünyada gedən sürətli rəqəmsal inkişaf prosesinin ayrılmaz hissəsinə çevriləcək

Səh. 3

GÜNÜN FOTOSU...



Norveçdən tarixi qələbə

GÜNÜN SİTATI

"Münaqişə bölgələrində olan 600-ə yaxın Azərbaycan vətəndaşı ölkəyə qaytarılıb"



**Ceyhun Bayramov,**
Azərbaycanın Xarici İşlər naziri

KARİKATURA



Dişi çıxarılıb, amma zəhəri qalır!

## Təyyarədə bu səhvi etməyin

**Ceyhun Aşurov,**
turizm eksperti

Təyyarələrdə şəxsi əşyaların oğurlanması halları geniş yayılmış və ya kütləvi xarakter alan problem kimi qiymətləndirilməməlidir.

Səh. 7

STATİSTİKA



■ **Bu ilin yanvar-iyun aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun fəaliyyət istiqamətləri üzrə ümumilikdə 229 425 vətəndaş müraciəti qeydə alınıb.**

Müraciətlərdən 91034-ü pensiya, 58147-si müavinət, 9074-ü Prezident təqaüdü, 37723-ü ünvanlı dövlət sosial yardımı, 7 965-i fərdi uçot və sosial sığorta, 669-u dövlət icbari şəxsi sığorta və 24813-ü isə digər istiqamətlərlə bağlı olub.



Səh. 6

## Abşeron qazanır, bölgələr itirir...

**PREZİDENTİN İŞ GÜNÜ**

## Qəbul



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadini qəbul edib. Bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb.**

Qonaq İordaniyanın Kralı II Abdullah ibn Al Hüseynin salamlarını və İordaniyaya dəvətini dövlətimizin başçısına çatdırdı, İordaniya Kralının Azərbaycan Prezidenti ilə şəxsi münasibətlərə çox böyük dəyər verdiyini qeyd etdi. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniyanın Kralına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev də öz növbəsində, İordaniya Kralını ölkəmizə səfərə dəvət etdi. Dövlətimizin başçısı ölkəmizdə, İordaniyada və beynəlxalq tədbirlər çərçivəsində Kral II Abdullah ibn Al Hüseyn ilə görüşlərini məmnunluqla xatırladı.

Söhbət zamanı müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından mühüm rol oynadığı vurğulandı, əlaqələrimizin dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslandığı qeyd edildi. Siyasi, iqtisadi, energetika, bağlantılar, investisiyalar, humanitar və digər sahələrdə tərəfdaşlığın möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, regional məsələlər, gələcək təmaslar, hökumətlərarası komissiyanın fəaliyyətinin genişləndirilməsi və parlamentlərarası əməkdaşlığa dair fikir mübadiləsi aparıldı. Turizm sahəsində əməkdaşlığa toxunularaq, bu xüsusda Azərbaycanla İordaniya arasında birbaşa müntəzəm aviareyslərin açılması məsələsi müzakirə olundu.

## Qurbanqulu Berdiməhəmmədov Azərbaycana təşəkkür etdi



**Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov bu ölkədə səfərdə olan Azərbaycan iqtisadiyyat naziri Mikayıl Cabbarovla görüşüb. M.Cabbarov Prezident İlham Əliyevin səmimi salamlarını Q.Berdiməhəmmədova çatdırıb.**

Öz növbəsində, Türkmənistan Xalq Məsləhətinin sədri Azərbaycan Prezidentinə ən xoş arzularını ifadə edib və iki dost dövlət arasında durmadan dərinləşən qarşılıqlı əlaqələrin önəmini vurğulayıb. O, Türkmənistan və Azərbaycan arasında əlaqələrin ənənəvi qarşılıqlı hörmət prinsipləri əsasında inkişaf etdiyini bildirib.

Görüş zamanı qeyd olunub ki, Türkmənistan Azərbaycan ilə dostluq, qardaşlıq və mehriban qonşuluq əlaqələrinin möhkəmləndirilməsinə böyük əhəmiyyət verir. Türkmənistan Prezident Sərdar Berdiməhəmmədovun Azərbaycana ötən ay etdiyi dövlət səfərinin əhəmiyyətinə toxunulub. Q. Berdiməhəmmədov səfərdə Türkmənistan hədiyyə edilən "Dostlug" neftdaşıyan tankerinə görə Azərbaycan tərəfinə bir daha öz minnətdarlığını bildirib.

## HHQ və XTQ komandanları təltif olunublar

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bir qrup hərbi qulluqçunu təltif edib.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, general-polkovnik Z.Həsənovun müvafiq əmrinə əsasən, müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) Komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Namiq İslamzadə Fəxri Fərman, Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-mayor Ələkbər Cahangirov isə "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medalı ilə təltif olunublar.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Zaman" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -1500

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC 1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# ABŞ - Azərbaycan tərəfdaşlığında yeni mərhələ

**Gündəm**

əvvəli 1-ci səhifədə

Deputatın sözlərinə görə, bu əməkdaşlıq həm Azərbaycanın iqtisadi inkişafına, həm də regionun enerji və nəqliyyat təhlükəsizliyinin möhkəmlənməsinə mühüm töhfə verəcək:

"Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlıq mövcuddur və yeni əməkdaşlıq xəritəsinin imzalanması ikitərəfli münasibətlərin daha da dərinləşməsi üçün yeni imkanlar yaradacaq. Bu əməkdaşlıq təkcə enerji sektoru ilə məhdudlaşmır, eyni zamanda iqtisadiyyatın, texnologiyanın, rəqəmsal inkişafın və yaşıl enerjinin müxtəlif istiqamətlərini də əhatə edir.

Enerji sahəsi isə hələ də tərəfdaşlığın əsas sütunlarından biri olaraq qalır. ABŞ üçün Azərbaycanın əhəmiyyəti ilk növbədə onun müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı mühüm rolla bağlıdır. Vaşinqton uzun illərdir Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən beynəlxalq enerji layihələrini dəstəkləyib. Xüsusilə də Cənub Qaz Dəhlizi kimi strateji layihələr ABŞ tərəfindən daim siyasi dəstək qazanıb. Bu baxımdan Azərbaycan təkcə enerji istehsalçısı deyil, həm də Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən etibarlı tərəfdaş kimi çıxış edir.

Azərbaycanın geosiyasi mövqeyi də ABŞ üçün xüsusi əhəmiyyət daşıyır. Xəzər regionu yalnız enerji ehtiyatlarına görə deyil, həm də Şərqlə Qərbi birləşdirən mühüm nəqliyyat və logistika qovşağı kimi diqqət mərkəzindədir.



ABŞ-ın Xəzər hövzəsinə münasibəti də məhz bu strateji reallıqlardan irəli gəlir. Bir tərəfdən Vaşinqton Rusiya və İrana qarşı tətbiq etdiyi sanksiyalar fonunda bölgədə fərqli siyasət yürüdür, digər tərəfdən isə Azərbaycan və Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verir". V.Bayramov eyni zamanda bildirir ki, ABŞ-Azərbaycan əməkdaşlığının perspektivləri enerji sektorundan xeyli kənara çıxır. Tərəflər süni intellekt, rəqəmsal transformasiya, innovasiya və yüksək texnologiyalar sahəsində əməkdaşlığı genişləndirmək niyyətindədirlər. Bu istiqamətdə yaradılmış işçi qrupları konkret layihələr üzərində fəaliyyət göstərir:

"Yaşıl enerji də prioritet istiqamətlərdən biridir. Azərbaycanın bərpa olunan enerji potensialı ABŞ şirkətləri üçün cəlbedici hesab olunur və bu sahədə əməkdaşlığın genişləndirilməsi hər iki tərəfin maraqlarına cavab verir. Rəqəmsal inkişaf və yeni texnologiyaların tətbiqi də gələcək əməkdaşlığın əsas istiqamətlərindəndir. ABŞ şirkətlərinin Azərbaycana investisiya yatırması yalnız maliyyə axını deyil, həm də qabaqcıl texnologiyaların, innovativ idarəetmə təcrübəsinin və müasir həllərin ölkəyə gətirilməsi deməkdir. Bu isə iqtisadiyyatın müxtəlif sahələrinin modernləşdirilməsinə və rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Azərbaycan da ABŞ ilə iqtisadi və texnoloji əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Xüsusilə özəl sektor arasında əlaqələrin gücləndirilməsi, birgə proqramların həyata keçirilməsi və innovasiya yönümlü layihələrin reallaşdırılması yaxın dövr üçün əsas prioritetlərdən biri olaraq qalır. Bu baxımdan iki ölkə arasında strateji tərəfdaşlığın gələcəkdə daha geniş məzmun qazanacağı gözlənilir".

> *"Azərbaycanın geosiyasi mövqeyi də ABŞ üçün xüsusi əhəmiyyət daşıyır"*

Qeyd edək ki, Azərbaycan 2026-cı il dekabrın 14-15-də ABŞ-ın Mayami şəhərində keçiriləcək G20 sammitinə dəvət olunan ölkələr sırasında yer alıb.

Bu barədə G20 üzrə ABŞ sədrliyinin rəsmi saytında məlumat yerləşdirilib. Məlumata əsasən, sammitə dəvət edilmiş ölkələr sırasında Azərbaycanla yanaşı, Qazaxıstan, Özbəkistan, Finlandiya, İrlandiya, Niderland, Norveç, Qətər, Sinqapur, İspaniya və Birləşmiş Ərəb Əmirlikləri də var.

Qeyd edək ki, G20 sammiti dünyanın aparıcı iqtisadiyyatlarının və dəvət olunmuş tərəfdaş ölkələrin iştirakı ilə qlobal iqtisadi gündəmin, beynəlxalq əməkdaşlığın və strateji çağırışların müzakirə edildiyi əsas platformalardan biri hesab olunur. Xatırladaq ki, 2025-ci ildə G20 sammiti Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilib.

*Tahirə*

# Ukraynada Azərbaycana məxsus obyektlərə növbəti hücum

***Rusiya-Ukrayna müharibəsinin uzanması döyüş meydanından kənarda da yeni siyasi və diplomatik müzakirələr doğurmaqdadır. Xüsusilə üçüncü ölkələrə məxsus iqtisadi obyektlərin hərbi əməliyyatlar zamanı zərər görməsi beynəlxalq hüquq, dövlətlərin məsuliyyəti və regional təhlükəsizlik baxımından ələvə suallar yaradır. Ukraynanın Mikolayiv vilayətində SOCAR-a məxsus yanacaqdoldurma məntəqəsinin dron hücumuna məruz qalması və Azərbaycanın buna diplomatik reaksiya verməsi də bu kontekstdə diqqətlə təhlil olunur.***



**Gündəm**

**Milli Məclisin deputatı Azər Badamov hadisənin hüquqi, siyasi və diplomatik aspektlərini Hafta.az şərh edib. Deputat hesab edir ki, Azərbaycanın atdığı addım beynəlxalq hüquqa əsaslanır və ölkənin dövlət maraqlarının müdafiəsi baxımından prinsipial mövqenin ifadəsidir:**

"Rusiya tərəfindən Ukraynanın Mikolayiv vilayətində yerləşən SOCAR yanacaqdoldurma məntəqəsinə dron hücumu ilə bağlı Rusiyanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət olunaraq ona kəskin etiraz notası təqdim edilib. Bu, Azərbaycanın öz dövlət maraqlarını və xaricdə yerləşən mülkiyyətini qorumaq baxımından tamamilə əsaslandırılmış və beynəlxalq hüquqa uyğun addımdır.

Qeyd edim ki, Azərbaycanın Ukraynadakı obyektlərinə zərər dəyməsi ilk hal deyil. Belə hadisələrin təkrar xarakter alması onların təsadüfi deyil, müəyyən sistemlilik daşıdığı barədə suallar yaradır. Bununla yanaşı, məsələyə Rusiya-Ukrayna müharibəsinin hazırkı dinamikası fonunda da yanaşmaq lazımdır". Deputat vurğulayıb ki, son dövrlərdə Ukrayna pilotsuz uçuş aparatları vasitəsilə Rusiyanın enerji infrastrukturu və neft emalı müəssisələrinə intensiv zərbələr endirir. Bu hücumlar Rusiyada yanacaq təminatına və logistika imkanlarına müəyyən təsirlər göstərib.

> *"Azərbaycanın Ukraynadakı obyektlərinə zərər dəyməsi ilk hal deyil"*

"Rusiya da öz növbəsində Ukraynanın enerji və yanacaq infrastrukturunu, o cümlədən yanacaqdoldurma məntəqələrini hədəfə alır, yeni müharibə aparan tərəflər qarşı tərəfin strateji və iqtisadi əhəmiyyət daşıyan obyektlərini sıradan çıxarmağa çalışırlar. Müharibənin gedişi heç bir halda Azərbaycana məxsus mülki obyektlərin hədəfə alınmasına bəraət qazandıra bilməz. Azərbaycanın Ukraynadakı enerji obyektləri və digər mülkiyyətinin təhlükəsizliyi təmin edilməlidir. Eyni zamanda, Azərbaycanın diplomatik nümayəndəliklərinin və milli şirkətlərinə məxsus obyektlərin təhlükəsizliyi beynəlxalq hüququn normaları çərçivəsində qorunmalıdır.

Bu baxımdan, Azərbaycanın Rusiyaya etiraz notası təqdim etməsi düzgün və prinsipial mövqedir. Hesab edirəm, bu nota Rusiya tərəfindən diqqətlə araşdırılacaq və aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınacaq. Ən azı, gələcəkdə Ukraynada Azərbaycana məxsus obyektlərə qarşı həyata keçiriləcək hərbi əməliyyatların planlaşdırılması zamanı daha həssas yanaşmanın nümayiş etdirilməsi və bu cür insidentlərin qarşısının alınması istiqamətində əlavə tədbirlərin görülməsi ehtimalı artıb. Bununla belə, müharibə şəraitində belə hadisələrin tamamilə istisna ediləcəyinə dair qəti təminat vermək də mümkün hesab etmirəm."- deputat qeyd edib.

**Məsələni Hafta.az şərh edən siyasi ekspert Azər Hüseynov hesab edir ki, yaranmış vəziyyətə emosional deyil, milli maraqlar və uzunmüddətli strateji hədəflər prizmasından yanaşmaq daha doğru olardı.** Siyasi ekspert bildirib ki, ilk növbədə nəzərə almaq lazımdır ki, hazırda müharibə Rusiya ilə Ukrayna arasında gedir və bu şəraitdə Azərbaycana məxsus SOCAR şirkətinin obyektlərinin zərər görməsi məsələsinə son dərəcə diqqətlə və ehtiyatla yanaşılmalıdır.

> *Yaranmış vəziyyət Azərbaycanın xarici siyasət kursunda təmkinli və balanslaşdırılmış yanaşmanın əhəmiyyətini bir daha ön plana çıxarır*

Onun sözlərinə görə, əgər bu hadisənin arxasında Rusiyanın Azərbaycana hər hansı siyasi və ya strateji mesaj vermək niyyəti dayanırsa, rəsmi Bakı bunu müvafiq diplomatik kanallar vasitəsilə qarşı tərəfin diqqətinə çatdırmalı, belə addımların qəbuledilməz olduğunu açıq şəkildə ifadə etməlidir. Azər Hüseynov hesab edir ki, yaranmış vəziyyət Azərbaycanın xarici siyasət kursunda təmkinli və balanslaşdırılmış yanaşmanın əhəmiyyətini bir daha ön plana çıxarır:

"Azərbaycan həm tərəfdaşlıq və müttəfiqlik əlaqələrini daha da gücləndirməli, həm də Rusiya daxilində, xüsusilə yumşaq güc (soft power) alətlərindən daha səmərəli istifadə etməlidir. Mədəni, humanitar, iqtisadi və ictimai əlaqələrin inkişaf etdirilməsi qarşılıqlı etimadın qorunmasına və gərginliyin azaldılmasına töhfə verə bilər. İstənilən mürəkkəb geosiyasi vəziyyətdə Azərbaycanın əsas üstünlüyü milli maraqlara söykənən praqmatik siyasət yürütməsindədir".

*Tahirə*

# Qadağa deyil, müdafiə mexanizmi

***Son illər rəqəmsal texnologiyaların sürətli inkişafı uşaqlar üçün yeni təhsil və inkişaf imkanları yaratmaqla yanaşı, onların təhlükəsizliyi ilə bağlı yeni çağırışları da gündəmə gətirib. Kiberbullinq, onlayn istismar, zərərli məzmun, rəqəmsal asılılıq və şəxsi məlumatların təhlükə altına düşməsi artıq dünyanın əksər ölkələrində dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib. Azərbaycanda da bu istiqamətdə mühüm addım atılaraq sosial şəbəkələrdə yaşın təsdiqi mexanizmlərinin tətbiqini nəzərdə tutan qanun dəyişiklikləri Milli Məclisdə üçüncü oxunuşda qəbul edilib.***

## Müsahib

Müsahibimiz "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin sədri Kəmalə Aşumovadır:

***- Sosial şəbəkələrdə yaşın yoxlanılması ilə bağlı dəyişiklikləri necə qiymətləndirirsiniz?***

- Bu qanunun qəbuluna ciddi ehtiyac var idi. Təşkilatımızın nəzdində fəaliyyət göstərən Uşaq Qaynar Xətt Xidməti artıq 15 ildən çoxdur ki, 24 saat fasiləsiz fəaliyyət göstərir. Bu müddətdə xidmətə 85 mindən artıq müraciət daxil olub, təkcə bu ilin ilk altı ayında isə müraciətlərin sayı 3700-ü ötüb. Bu təcrübə bizə uşaqların rəqəmsal mühitdə üzləşdiyi problemləri yaxından görmək imkanı verir. Belə hüquqi baza olmadıqda həm böyüklər tərəfindən uşaqlara qarşı, həm də uşaqların öz aralarında rəqəmsal mühitdə müxtəlif hüquq pozuntuları və təhlükəli hallarla rastlaşırıq. Qanun isə həm valideynlər, həm uşaq müdafiəsi sahəsində çalışan mütəxəssislər, həm də aidiyyəti qurumlar üçün aydın fəaliyyət çərçivəsi müəyyənləşdirir.

Hamı hansı məsuliyyət daşıdığını, hansı hallarda hansı addımların atılacağını və hüquqi nəticələrin nə olacağını dəqiq bilir. Mən bu qanunun ilkin müzakirələrində də iştirak etmişəm və hesab edirəm ki, vaxtında qəbul olunub. Dünyanın bir çox inkişaf etmiş ölkələrində artıq analoji qanunvericilik mövcuddur və əsas məqsəd hər yerdə eynidir - uşaqları rəqəmsal mühitin zərərli təsirlərindən vaxtında qorumaq.

***- Son illərdə uşaqların sosial şəbəkələrdən istifadəsi ilə bağlı ən ciddi problemlər hansılardır?***

- Təcrübəmiz göstərir ki, bu gün bizi narahat edən əsas problemlər kiberbullinq, onlayn təhqir, psixoloji manipulyasiya, naməlum şəxslərlə təhlükəli ünsiyyət, şantaj, onlayn seksual istismar, şəxsi məlumatların yayılması, sosial şəbəkə və onlayn oyunlardan asılılıqdır. Valideynlər tez-tez bildirirlər ki, uşaqlar yaşlarına uyğun olmayan şəxslərlə dostluq edir, canlı yayımlar açır, tanımadıqları insanlarla ünsiyyət qurur, hətta bəzi hallarda real həyatda görüşlər təşkil edirlər. Bundan başqa, müxtəlif təhlükəli "challenge"lər, zorakılıq məzmunları və yaşa uyğun olmayan materiallarla qarşılaşma halları da kifayət qədər çoxdur.

Praktikada müşahidə etdiyimiz əsas problemlərdən biri valideynlərin bu riskləri vaxtında görməməsidir. Bir çox ailə düşünür ki, telefon və ya planşet uşağın sadəcə əyləncə vasitəsidir. Lakin problem artıq ağır mərhələyə çatdıqda vəziyyətin ciddiliyi ortaya çıxır.

Digər mühüm məqam isə uşaqların qorxu və günahkarlıq hissi səbəbindən yaşadıqlarını valideynləri ilə bölüşməmələridir. Xüsusilə regionlarda ailələr çox vaxt hara müraciət etməli olduqlarını bilmirlər. Məktəb psixoloqlarının imkanları da hər zaman kifayət etmir. Bu səbəbdən Uşaq Qaynar Xətt Xidmətinə gecə saatlarında belə müraciətlər daxil olur.



**Kəmalə Aşumova,**
"Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin sədri

***- Yeni qaydalara əsasən 16 yaşadək uşaqların sosial şəbəkələrdə hesab açmasına icazə verilməyəcək, 16-18 yaş arasında isə valideyn razılığı tələb olunacaq. Bu yanaşma uşaqların maraqlarının qorunması baxımından nə dərəcədə effektiv görünür?***

- Bu yaş həddi təsadüfi müəyyən edilməyib. Dünyanın bir çox ölkəsində də məhz 16 yaş əsas götürülür, bəzi ölkələrdə isə 15 yaş tətbiq edilir. Bu yaş həddi uşaqların psixoloji, fizioloji və idrak inkişafı nəzərə alınmaqla müəyyənləşdirilib. Əsas məqsəd uşaqları rəqəmsal risklərdən qorumaqdır. Valideyn razılığı mexanizmi də təsadüfi deyil. Bu yanaşma uşaqla valideyn arasında ünsiyyəti gücləndirməyə xidmət edir.

***- Bəzi çevrələr bu dəyişiklikləri "sosial şəbəkələrə qadağa" kimi təqdim edirlər. Sizcə, bu yanaşma nə dərəcədə doğrudur?***

- Mən bu yanaşmanı düzgün hesab etmirəm. Burada söhbət qadağadan getmir.

Azərbaycanın qoşulduğu BMT-nin Uşaq Hüquqları Konvensiyası və milli qanunvericilik açıq şəkildə göstərir ki, valideyn uşağın təhlükəsizliyinə və inkişafına görə əsas məsuliyyət daşıyan şəxsdir. Ona görə də bu qanun uşağın hüquqlarını məhdudlaşdırmır, əksinə, onun təhlükəsizliyini təmin edən müdafiə mexanizmi yaradır.



Necə ki, uşaqların əməyə cəlb olunması müəyyən yaş və valideyn razılığı ilə mümkündür, sosial şəbəkələrdən istifadə zamanı da eyni yanaşma tətbiq olunur. Məqsəd uşağı rəqəmsal risklərdən qorumaq, platformalarda daha məsuliyyətli istifadə mədəniyyətini formalaşdırmaqdır.

***- Uşaqların hüquqlarının müdafiəsi ilə onların təhlükəsizliyinin təmin olunması arasında balans necə qorunmalıdır?***

- Əslində, bu iki anlayış bir-birini tamamlayır. Uşağın hüquqlarını qorumaq onun təhlükəsizliyini təmin etmək deməkdir. Biz uşaqların ifadə azadlığını, informasiya əldə etmək hüququnu məhdudlaşdırmırıq. Əksinə, onların rəqəmsal imkanlardan təhlükəsiz istifadə etməsinə şərait yaradırıq. Bu gün internet uşaqların təhsili, inkişafı və dünyagörüşünün formalaşması üçün mühüm vasitədir. Bütün hallarda üstün prinsip uşağın maraqları və təhlükəsizliyidir. Valideynlər uşaqların ifadə azadlığına mane olmadan onların maraqlarını qorumalı, rəqəmsal mühitdə təhlükəsiz fəaliyyət göstərmələrinə kömək etməlidirlər. Məhz bu balans qorunduğu halda həm uşaqların hüquqları təmin olunur, həm də onların rəqəmsal mühitdə üzləşə biləcəyi risklərin qarşısı alınır. Valideyn hər gün heç olmasa 10-15 dəqiqə övladı ilə birlikdə onun istifadə etdiyi rəqəmsal mühitə baxmalı, maraqlanmalı, söhbət etməli və razılaşdırılmış istifadə vaxtına əməl olunmasına nəzarət etməlidir. Bu, nəzarət məqsədi daşımır, əksinə, uşağın təhlükəsizliyi və sağlam inkişafı üçün vacib olan valideyn iştirakının tərkib hissəsidir.

***- Bu qanunun uğurlu tətbiqi üçün maarifləndirmənin rolu nə qədər vacibdir? Təkcə hüquqi mexanizmlər kifayət edəcəkmi?***

- Maarifləndirmə bu qanunun uğurlu tətbiqinin əsas şərtlərindən biridir. Hesab edirəm ki, təkcə hüquqi mexanizmlərin mövcudluğu kifayət etməyəcək. Qanun hüquqi baza yaradır, lakin onun real nəticə verməsi üçün cəmiyyətin bütün iştirakçıları bu prosesə hazırlıqlı olmalıdır. İlk növbədə, rəqəmsal mühit və sosial şəbəkələrlə bağlı maarifləndirmə genişləndirilməlidir. Bu proses yalnız valideynləri əhatə etməməlidir. Uşaqlarla birbaşa çalışan müəllimlər, məktəb psixoloqları, sosial işçilər, dövlət qurumlarının əməkdaşları, qeyri-hökumət təşkilatları, eləcə də rəqəmsal platformaların yaradıcıları və provayderləri də uşaq hüquqları sahəsində kifayət qədər məlumatlı olmalıdırlar. Onlar uşaqların hüquqlarını tənzimləyən prinsipləri bilməli, fəaliyyətlərinin hüquqi məsuliyyətini və qanunvericiliyin tələblərini aydın şəkildə dərk etməlidirlər.

> *"Uşaqları sosial şəbəkələrdən uzaqlaşdırmaq yox, rəqəmsal mühitdə təhlükəsizliyini təmin etmək lazımdır*

Xüsusilə regionlarda bu sahədə müəyyən boşluqlar qalmaqdadır. Təcrübəmiz göstərir ki, bölgələrdə psixoloji və ixtisaslaşmış yardım xidmətlərinə çıxış imkanları məhduddur. Buna görə də dövlət tərəfindən bu istiqamətdə xüsusi proqramların hazırlanmasına, yeni xidmətlərin yaradılmasına və mövcud dəstək mexanizmlərinin gücləndirilməsinə ehtiyac var. Digər mühüm istiqamətlərdən biri də mütəmadi monitorinqlərin aparılması və uşaqların öz fikirlərinin öyrənilməsidir. Uşaqlar qərarqəbuletmə proseslərində iştirak etməli, onların ehtiyacları və qarşılaşdıqları problemlər birbaşa özlərindən öyrənilməlidir. Bu yanaşma erkən müdaxilə və effektiv dəstək mexanizmlərinin qurulmasına mühüm töhfə verir.

***- Dünyanın müxtəlif ölkələrində də sosial şəbəkələrdə yaş məhdudiyyətləri və yaşın təsdiqi mexanizmləri tətbiq olunur. Sizcə, Azərbaycanın yanaşması beynəlxalq təcrübə ilə nə dərəcədə uzlaşır?***

- Hesab edirəm ki, Azərbaycanın qəbul etdiyi bu qanun beynəlxalq təcrübəyə əsaslanan və müasir çağırışlara cavab verən mühüm hüquqi addımdır. Bu istiqamətdə dünyanın bir sıra ölkələrində artıq müvafiq qanunvericilik qəbul olunub, bəzi dövlətlərdə isə yaşın təsdiqi mexanizmləri artıq tətbiq mərhələsinə keçib. Ona görə də Azərbaycanın da bu prosesə qoşulması və inkişaf etmiş ölkələrin tətbiq etdiyi yanaşmaları nəzərə alaraq müvafiq hüquqi çərçivə formalaşdırması olduqca müsbət haldır.

Bu, ilk növbədə onu göstərir ki, dövlət uşaqların hüquqlarını prioritet istiqamət kimi qiymətləndirir və rəqəmsal mühitdə yaranan təhlükələrin qarşısının vaxtında alınması üçün qabaqlayıcı mexanizmlər formalaşdırmağa çalışır.

Bununla yanaşı, qanunun tətbiqi prosesində xüsusi diqqət yetirilməli olan məsələlər də var. İlk növbədə, uşaqların hüquqlarının, şəxsi məlumatlarının və məxfiliyinin qorunması beynəlxalq standartlara uyğun şəkildə təmin edilməlidir.

Beynəlxalq təcrübədə də məhz bu prinsiplər əsas götürülür və yaşın yoxlanılması mexanizmləri şəxsi məlumatların təhlükəsizliyi ilə balanslaşdırılır. Qanun eyni zamanda sosial şəbəkə platformalarının sahibləri və rəqəmsal xidmət provayderləri üçün də mühüm mesajdır. Platformaları hazırlayan və idarə edən şirkətlər artıq məhsullarını yaradarkən uşaq müdafiəsi mexanizmlərini əvvəlcədən nəzərə almalı, təhlükəsizlik standartları tətbiq etməli, yaşa uyğun istifadə qaydaları müəyyənləşdirməli və öz platformalarında mütəmadi monitorinq aparmalıdırlar. Mənim bildiyimə görə, qanunvericilikdə bu tələblərə əməl etməyən fiziki və hüquqi şəxslər üçün məsuliyyət tədbirləri və sanksiyalar da nəzərdə tutulur. Bu cərimələr təsadüfi xarakter daşımır. Onlar rəqəmsal platformaları uşaqların təhlükəsizliyinə daha məsuliyyətlə yanaşmağa təşviq edən hüquqi mexanizmlərdir.

***- Bəzi valideynlər hesab edirlər ki, texniki qadağalar uşaqları tam qoruya bilməyəcək. Sizcə, uşaqların rəqəmsal təhlükəsizliyində əsas rol texnologiyaya, valideyn nəzarətinə, yoxsa rəqəmsal savadlılığın artırılmasına məxsusdur?***

- Bu məsələdə hansısa bir amili digərindən üstün tutmaq düzgün olmaz. Uşaqların rəqəmsal təhlükəsizliyi yalnız bir vasitə ilə təmin edilə bilməz. Burada texnologiya, valideyn nəzarəti və rəqəmsal savadlılıq bir-biri ilə sıx bağlı olan və qarşılıqlı şəkildə tamamlanan üç əsas sütundur. Bu elementlərdən hər hansı biri zəif olarsa, ümumi müdafiə mexanizmi də tam effektiv işləməyəcək. Cəmiyyət olaraq da unutmamalıyıq ki, uşaqların təhlükəsizliyi yalnız ailənin məsuliyyəti deyil. Bu, müəllimlərin, psixoloqların, sosial işçilərin, dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və bütövlükdə cəmiyyətin ortaq məsuliyyətidir.

✍ *Tahirə Qafarlı*



# Azərbaycanın yeni rəqəmsal inkişaf düsturu

***Son illər Azərbaycanda rəqəmsallaşma dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi ardıcıl şəkildə inkişaf etdirilir. Dövlət xidmətlərinin elektronlaşdırılması, rəqəmsal platformaların genişləndirilməsi, innovasiya ekosisteminin formalaşdırılması və kibertəhlükəsizlik sahəsində həyata keçirilən islahatlar ölkənin yeni inkişaf modelinin mühüm tərkib hissəsinə çevrilib.***

## Texnologiya

Prezident İlham Əliyevin 2026-cı il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" qarşıdakı 3 il ərzində ölkənin texnoloji inkişafını təmin edəcək kompleks tədbirləri və strateji hədəfləri müəyyən edir. Hazırda ölkəmizdə bu istiqamətdə aparılan islahatlar innovasiya və rəqəmsal iqtisadiyyatın inkişafını dəstəkləyən hüquqi mühitin təkmilləşdirilməsini əhatə edir və qabaqcıl beynəlxalq təcrübə əsasında hazırlanır.

■ **Millət vəkili Vüqar Bayramov bildirir ki, dövlət xidmətlərinin vətəndaşlar, eləcə də sahibkarlar üçün vahid platforma üzərindən təqdim olunması bir tərəfdən şəffaflığın artırılması, digər tərəfdən isə əlçatanlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.**

Onun sözlərinə görə, vətəndaşlar və sahibkarlar bir çox hallarda eyni vaxtda bir neçə dövlət xidmətinə müraciət edirlər. Xidmətlərin elektronlaşdırılması və vahid platformada inteqrasiya olunması həmin xidmətlərin internet üzərindən əldə edilməsinə imkan yaradır:

"Digər tərəfdən isə vahid platforma vaxta qənaət, əlçatanlığın artırılması və xidmətlərin daha operativ göstərilməsi deməkdir. Beləliklə, vətəndaşlar və sahibkarlar bu platforma vasitəsilə bir neçə xidməti qısa müddətdə, hətta eyni vaxtda əldə etmək imkanı qazanırlar. Bu baxımdan, vahid platforma həm əlçatanlığı artırır, həm şəffaflığı gücləndirir, həm də zamana və vəsaitə qənaət edilməsinə şərait yaradır. Sözsüz ki, nəzərə alsaq, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında qeyd olunan strateji məqamlardan biri də təsdiq edilmiş üçillik Yol Xəritəsinə uyğun olaraq bu sahədə hüquqi bazanın daha da təkmilləşdirilməsi və yeni innovativ yanaşmaların tətbiqidir.

> *"Vahid platforma vaxta qənaət, əlçatanlığın artırılması və xidmətlərin daha operativ göstərilməsi deməkdir*

> *Proseslərin tam rəqəmsallaşması idarəetmədə şəffaflığı kəskin artıraraq Azərbaycanın beynəlxalq elektron hökumət reytinqlərindəki rəqabətədavamlı mövqeyini keyfiyyətcə yeni mərhələyə yüksəldir*

Bu istiqamətdə vacib məsələlərdən biri qanunvericiliyin daha da təkmilləşdirilməsi, xüsusilə də rəqəmsal inkişaf və süni intellekt sahəsində güzəştlərin və təşviq mexanizmlərinin tətbiqi ola bilər. Bizim də təklifimiz ondan ibarətdir ki, Azərbaycanda "Startaplara dövlət dəstəyi haqqında" qanun layihəsi hazırlanaraq qəbul edilsin. Süni intellekt və rəqəmsal inkişafı dəstəkləyən ölkələrin əksəriyyətində belə qanunlar mövcuddur və bu da startapların dövlət tərəfindən daha yaxından dəstəklənməsinə imkan yaradır". Millət vəkili vurğulayır ki, süni intellekt və rəqəmsal inkişaf daha çox startaplar vasitəsilə inkişaf etdirilir:

"Ona görə də bu istiqamətdə dövlət dəstəyinin gücləndirilməsi üçün yeni qanunun qəbul edilməsini məqsədəuyğun hesab edirik. Həmin qanun dövlət dəstəyinin genişləndirilməsi ilə yanaşı, vergi güzəştləri də daxil olmaqla digər təşviq alətlərini də özündə ehtiva edə bilər. Vacib məqamlardan biri də rəqəmsal inkişaf üçün innovasiya və texnologiyaların cəlb edilməsidir. Burada həm innovasiyaların tətbiqi, həm proqram təminatının transferi, həm də kibertəhlükəsizliyin gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bir tərəfdən qanunvericilik bazasının genişlənməsi, digər tərəfdən isə yeni rəqəmsal həllərin tətbiqi kibertəhlükəsizliyin daha da gücləndirilməsini zəruri edir. Nəzərə almaq lazımdır ki, təqdim olunan xidmətlər elektron xarakter daşıyır və buna görə də onların etibarlı şəkildə qorunması olduqca vacibdir. Hesab edirəm ki, təsdiq olunmuş Fəaliyyət Planı, eləcə də Mehriban xanım Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurası tərəfindən müəyyənləşdirilən hədəflər və bu istiqamətdə həyata keçirilən addımlar Azərbaycanın regionda süni intellekt habına çevrilməsinə ciddi töhfə verə bilər".

■ **"Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası" İctimai Birliyinin sədri Elvin Abbasov bildirib ki, ayrı-ayrı dövlət qurumlarının fərdi portallarının və mobil tətbiqlərinin mərhələli şəkildə vahid ekosistemə inteqrasiya edilməsi, həm vətəndaşların gündəlik rəqəmsal təcrübəsini kökündən dəyişdirəcək, həm də dövlət idarəçiliyində səmərəliliyi maksimallaşdıracaq strateji bir addımdır.**

Səh. 5

# Yol qəzasında kim və niyə məsuliyyət daşıyır?

## Layihə

***Son günlər sosial şəbəkələrdə tanınmış tiktoker Arzumun yol-nəqliyyat hadisəsinə görə həbs olunması cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Hadisə ilə bağlı müxtəlif fikirlər səsləndirilir, bəziləri hökmün sərt olduğunu, digərləri isə qanunun hamı üçün eyni tətbiq edilməli olduğunu bildirir. Bu hadisə bir daha diqqəti vacib bir suala yönəldir: Azərbaycanda ölümlə və ya ağır nəticələrlə müşayiət olunan yol-nəqliyyat hadisələri zamanı hüquqi məsuliyyət necə müəyyən edilir və məhkəmə hansı meyarlarla qərar qəbul edir?***



Hüquqşünasların sözlərinə görə, belə işlərdə ictimai rəy və ya sosial şəbəkələrdəki müzakirələr deyil, yalnız qanun və toplanmış sübutlar əsas götürülür. İstintaqın əsas məqsədi qəzanın hansı şəraitdə baş verdiyini, sürücünün hansı qaydanı pozduğunu və həmin pozuntunun nəticə ilə səbəb-nəticə əlaqəsinin olub-olmadığını müəyyən etməkdir.

Qəzanın baş verdiyi andan etibarən hadisə yeri müayinə edilir, avtomobilə baxış keçirilir, əyləc izi, yol örtüyünün vəziyyəti, müşahidə kameralarının görüntüləri, şahid ifadələri, ekspertiza rəyləri və digər sübutlar toplanır. Lazım gəldikdə məhkəmə-tibbi, avtotexniki və trasoloji ekspertizalar təyin olunur. Məhz bu sübutların məcmusu əsasında sürücünün hərəkətlərinə hüquqi qiymət verilir. Əgər hadisə nəticəsində insan ölümü və ya ağır bədən xəsarəti baş veribsə, cinayət işi açılır. Bu zaman istintaq orqanı sürücünün ehtiyatsızlıqdan cinayət törədib-törətmədiyini araşdırır. Sürücünün sürət həddini aşması, sərxoş vəziyyətdə avtomobil idarə etməsi, yol nişanlarının tələblərini pozması, piyadaya yol verməməsi və digər qayda pozuntuları məsuliyyəti ağırlaşdıran hallar kimi qiymətləndirilə bilər. Məhkəmə hökmü çıxarılarkən yalnız qəzanın özü deyil, həm də təqsirləndirilən şəxsin davranışı nəzərə alınır. Onun hadisədən sonra zərərçəkənə kömək göstərməsi, peşmançılıq ifadə etməsi, dəymiş ziyanın ödənilməsi, əvvəllər məhkum olunmaması və digər hallar cəzanın fərdiləşdirilməsinə təsir edən amillərdir. Eyni zamanda, hadisə yerini tərk etmək, sərxoş vəziyyətdə avtomobil idarə etmək və ya kobud qayda pozuntuları törətmək cəzanı ağırlaşdıra bilər.

■ **Mövzu ilə bağlı hüquqşünas Ramil Süleymanov bildirib ki, qəzadan sonra sürücünün ilk davranışı sonrakı hüquqi qiymətləndirməyə birbaşa təsir göstərən əsas amillərdəndir. Onun fikrincə, sürücü heç bir halda hadisə yerini tərk etməməlidir.** "Hadisə yerindən yayınmaq həm istintaq, həm də məhkəmə tərəfindən ağırlaşdırıcı hal kimi qiymətləndirilir. Çünki bu, zərərçəkmiş şəxsin həyatını təhlükə altında qoymaq və ona vaxtında yardım göstərilməsinə mane olmaq kimi dəyərləndirilə bilər", - deyə hüquqşünas bildirib. Onun sözlərinə görə, qəza baş verdiyi andan dərhal sonra hüquq-mühafizə orqanlarına məlumat verilməli, polis əməkdaşlarının hadisə yerinə gəlməsi və qəzanın qanunvericiliyə uyğun rəsmiləşdirilməsi gözlənilməlidir.

Əgər yol-nəqliyyat hadisəsi insan ölümü, ağır bədən xəsarəti və ya digər ağır nəticələrlə müşayiət olunubsa, həmin fakt artıq cinayət-hüquqi müstəviyə keçir. Bu halda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-cü maddəsi üzrə cinayət işi başlanılır və hadisə ilə bağlı geniş istintaq aparılır. Ramil Süleymanov deyir ki, belə işlərdə avtotexniki ekspertizanın keçirilməsi faktiki olaraq qaçılmazdır. Müstəntiq qəzanın başvermə səbəblərini, sürücülərin hərəkətlərini, yol şəraitini və digər texniki məqamları araşdırmaq üçün ekspert qarşısında konkret suallar qoyur. Hüquqşünasın sözlərinə görə, bu mərhələdə həm təqsirləndirilən şəxsin, həm də zərərçəkmişin müdafiə hüququ tam təmin olunmalıdır. Tərəflər və onların vəkilləri ekspert qarşısında qoyulacaq sualların hazırlanmasında iştirak edə, zəruri hesab etdikləri əlavə sualları isə vəsatət şəklində müstəntiqə təqdim edə bilərlər.

Ekspertiza rəyi təqdim edildikdən sonra tərəflərin həmin rəylə razılaşmaq məcburiyyəti yoxdur. Əgər rəydə ziddiyyətli, natamam və ya şübhə doğuran məqamlar aşkar edilərsə, əlavə və ya təkrar ekspertiza keçirilməsi barədə vəsatət qaldırıla bilər. Müstəntiq həmin vəsatəti əsaslandırılmış qərarla ya təmin edir, ya da rədd edir. İstintaq başa çatdıqdan sonra toplanmış bütün materiallar həm təqsirləndirilən şəxsə, həm də zərərçəkmişə təqdim olunur. Tərəflər iş materialları ilə tanış olur, qeydlərini bildirir və bundan sonra cinayət işi mahiyyəti üzrə baxılması üçün məhkəməyə göndərilir.

Məhkəmə araşdırması zamanı da tərəflər yeni vəsatətlər qaldırmaq, o cümlədən yenidən avtotexniki ekspertiza keçirilməsini tələb etmək hüququna malikdirlər.

Hüquqşünas vurğulayır ki, qəzanı törədən şəxsin hadisədən sonrakı davranışı cəzanın müəyyən edilməsində mühüm rol oynayır. Zərərçəkmişlə barışıq əldə olunması, müalicə xərclərinin ödənilməsi, vurulmuş maddi ziyanın könüllü şəkildə qarşılanması, peşmançılıq nümayiş etdirilməsi və zərərin aradan qaldırılması istiqamətində atılan addımlar məhkəmə tərəfindən təqsirləndirilən şəxsin xeyrinə qiymətləndirilən hallardır. Əksinə, zərərçəkmişlə münasibətlərin tamamilə pozulması, dəymiş ziyanın ödənilməsindən yayınmaq və məsuliyyətdən qaçmağa çalışmaq məhkəmənin hüquqi qiymətləndirməsinə təsirsiz ötüşmür.

Ramil Süleymanov ekspertiza rəyləri ilə bağlı cəmiyyətdə tez-tez yaranan suallara da münasibət bildirib. Onun sözlərinə görə, ilk ekspertiza rəyi son həqiqət hesab edilmir.

"Ekspert də insandır və səhv edə bilər. Əgər rəydə qeyri-dəqiqlik və ya ziddiyyət varsa, vəkillər bununla bağlı təkrar ekspertiza keçirilməsi üçün vəsatət verməlidirlər. Bu, qanunvericilikdə nəzərdə tutulmuş hüquqdur", - deyə hüquqşünas qeyd edib. O əlavə edib ki, ekspert rəyi müstəntiq və ya məhkəmə üçün mütləq xarakter daşımır. Onlar bütün sübutları birlikdə qiymətləndirərək daxili inam əsasında qərar qəbul edirlər. Ekspertin rəyindən fərqli nəticəyə gəlinərsə, həmin mövqe mütləq hüquqi cəhətdən əsaslandırılmalıdır. Hüquqşünasın fikrincə, belə işlərdə əsas məqsəd yalnız təqsirkarı müəyyən etmək deyil, hadisənin bütün səbəblərini obyektiv araşdırmaq və qanunun aliliyini təmin etməkdir. Bu prosesdə müstəntiqin, ekspertin, vəkilin və məhkəmənin hər biri öz səlahiyyətləri çərçivəsində həqiqətin üzə çıxarılmasına xidmət etməlidir.

■ **Nəqliyyat məsələləri üzrə ekspert, texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Fərhad Eyyubov isə hesab edir ki, yol-nəqliyyat hadisələrinin araşdırılmasında əsas məqsəd təkcə günahkarı müəyyənləşdirmək deyil, həm də həmin qəzanın hansı səbəblərdən baş verdiyini dəqiq müəyyən edərək gələcəkdə oxşar hadisələrin qarşısını almaq olmalıdır.** Ekspertin sözlərinə görə, hər bir yol-nəqliyyat hadisəsi mürəkkəb səbəblər zəncirinin nəticəsidir və buna görə də araşdırmalar səthi aparılmamalıdır.

"Təxminən, hər 100 yol-nəqliyyat hadisəsinə 250-yə yaxın müxtəlif səbəb və amil təsir göstərir. Əgər bu səbəblər tam və obyektiv araşdırılmasa, gələcəkdə analoji qəzaların qarşısını almaq mümkün olmayacaq. Eyni zamanda, hadisənin bütün halları dəqiq müəyyən edilmədikdə, cəzanın da obyektivliyi sual altına düşə bilər", - deyə Fərhad Eyyubov bildirir. Onun sözlərinə görə, bəzi qəzalar yaşayış məntəqələrindən kənarda, müşahidə kameralarının və şahidlərin olmadığı ərazilərdə baş verir. Belə hallarda hadisənin necə baş verdiyini müəyyənləşdirmək yalnız peşəkar ekspertiza və elmi təhlil vasitəsilə mümkündür.

Ekspert qeyd edir ki, yol qəzasının araşdırılması sadəcə avtomobilin sürətini müəyyən etməkdən ibarət deyil. Bunun üçün əyləc izləri, avtomobilin deformasiyası, yol örtüyünün vəziyyəti, hava şəraiti, toqquşmanın istiqaməti, nəqliyyat vasitələrinin hərəkət trayektoriyası və digər çoxsaylı texniki göstəricilər xüsusi metodika və hesablamalar əsasında təhlil edilir.

"Bu sahədə çalışan ekspert həm avtotexniki biliklərə, həm də yol hərəkətinin təhlükəsizliyi sahəsində geniş praktik təcrübəyə malik olmalıdır. Hadisənin bütün detalları dərindən araşdırılmadan obyektiv nəticəyə gəlmək mümkün deyil", - deyə o vurğulayıb. Fərhad Eyyubovun fikrincə, hər bir yol qəzası gələcək üçün dərs olmalıdır. Çünki baş vermiş hadisəni geri qaytarmaq mümkün deyil, lakin onun səbəblərini düzgün təhlil etməklə yeni faciələrin qarşısını almaq olar.

Ekspert bildirir ki, yol-nəqliyyat hadisələrinin səbəbləri əsasən iki qrupa bölünür - obyektiv və subyektiv amillər. Obyektiv amillərə nəqliyyat vasitəsinin texniki nasazlığı, yol infrastrukturundakı qüsurlar, işıqlandırmanın zəif olması, yol örtüyünün vəziyyəti və digər sürücüdən asılı olmayan faktorlar daxildir. Subyektiv amillər isə sürücünün yol hərəkəti qaydalarını pozması, sürət həddini aşması, diqqətsizlik, təcrübəsizlik və digər insan faktoru ilə bağlı hallardır. "Hadisənin qarşısını almaq mümkün idimi, yoxsa yox? Məhz bu sualın cavabı araşdırmanın əsas istiqamətlərindən biri olmalıdır. Çünki yalnız səbəblər dəqiq müəyyənləşdirildikdən sonra həm hüquqi məsuliyyət obyektiv şəkildə qiymətləndirilə, həm də gələcəkdə oxşar qəzaların qarşısını almaq üçün effektiv tədbirlər görülə bilər", - deyə ekspert bildirib.

Fərhad Eyyubov hesab edir ki, cəza təkbaşına yol təhlükəsizliyi problemini həll etmir. Onun sözlərinə görə, bəzi yol sahələri illərlə "qəza ocağı" kimi qalır və eyni ərazidə ardıcıl şəkildə ağır qəzalar baş verir. Bu isə göstərir ki, məsələ yalnız sürücülərin davranışı ilə məhdudlaşmır. "Belə ərazilər mütləq şəkildə ayrıca araşdırılmalı, yolun layihələndirilməsi, nişanlanması, işıqlandırılması və digər infrastruktur problemləri qiymətləndirilməlidir. Əks halda eyni yerdə eyni hadisələr təkrar olunacaq", - deyə ekspert vurğulayıb.

Onun fikrincə, yol qəzalarının araşdırılması zamanı həm birbaşa, həm də dolayı təsir göstərən bütün amillər birlikdə qiymətləndirilməlidir. Yalnız bundan sonra hadisə iştirakçılarının məsuliyyəti obyektiv müəyyən edilə və eyni zamanda, gələcəkdə analoji qəzaların qarşısını almağa yönəlmiş səmərəli qərarlar qəbul oluna bilər. Ekspert sonda qeyd edir ki, hazırda bütün obyektiv və subyektiv amillərin tam dəqiqliklə araşdırılması istiqamətində hələ görülməsi işlər çoxdur və bu sahədə həm ekspertiza institutunun, həm də yol təhlükəsizliyi sisteminin daha da təkmilləşdirilməsinə ehtiyac var.

*"Qəzadan sonra sürücünün ilk davranışı sonrakı hüquqi qiymətləndirməyə birbaşa təsir göstərən əsas amillərdəndir*

*Belə ərazilər mütləq şəkildə ayrıca araşdırılmalı, yolun layihələndirilməsi, nişanlanması, işıqlandırılması və digər infrastruktur problemləri qiymətləndirilməlidir*

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İstiqamət - insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

# Günəş altında təhlükəli saatlar

***Yay mövsümündə havanın temperaturunun yüksəlməsi ilə günvurma halları da artır. Mütəxəssislər bildirirlər ki, isti hava şəraitində təhlükəsizlik qaydalarına əməl olunmaması sağlamlıq üçün ciddi risklər yaradır. Xüsusilə ürək-damar sistemi xəstəlikləri, şəkərli diabet, nevroloji və digər xroniki xəstəlikləri olan şəxslər, yaşlılar və azyaşlı uşaqlar yüksək temperaturun təsirlərinə qarşı daha həssas hesab olunurlar.***



Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Zakir Quliyevin sözlərinə görə, günvurma nəticəsində bədən hərarəti 40 dərəcə və daha yuxarı qalxa bilər. Bu zaman dəri isti, quru və qızarmış olur, nəbz sürətlənir, tənəffüs tezləşir. Vəziyyət ağırlaşdıqda diqqət pozğunluğu, davranış dəyişiklikləri, nitqdə çətinlik, huşun bulanması, qıcolmalar və hətta huşun itirilməsi baş verə bilər. Onun sözlərinə görə, bu əlamətlər təcili tibbi yardım tələb edən ağır vəziyyətin göstəricisidir.

■ **Tibb elmləri doktoru, professor Adil Qeybulla isə bildirib ki, insan orqanizmi temperatur dəyişikliklərinə müəyyən müddət uyğunlaşa bilir.** İsti hava şəraitində damarlar genişlənir, tərləmə artır və orqanizm artıq istiliyi xaric etməyə çalışır. Kompensator mexanizmlərin imkanları məhduddur. Orqanizmin uyğunlaşma ehtiyatı tükəndikdə daxili bədən temperaturu yüksəlir və istivurma baş verir.

Professorun sözlərinə görə, daxili temperaturun yüksəlməsi qanın qatılaşmasına, mikrosirkulyasiyanın pozulmasına, arterial və beyin təzyiqinin enməsinə səbəb olur. Nəticədə insan huşunu itirə bilər. Vaxtında tibbi yardım göstərilmədikdə isə bu vəziyyət həyati təhlükə yarada, hətta ölümlə nəticələnə bilər. Mütəxəssislər bildirirlər ki, isti havada halsızlıq, başgicəllənmə, ürəkbulanma və ya özünü pis hiss etmə kimi əlamətlər yaranan kimi insan dərhal kölgəli və ya sərin məkana keçirilməlidir. Zərərçəkənin paltarları boşaldılmalı, alnına və bədəninə yaş dəsmal qoyulmalı, bədən temperaturunun aşağı salınmasına çalışılmalıdır. Huşun pozulması, qıcolma və ya yüksək hərarət müşahidə olunduqda isə dərhal təcili tibbi yardım çağırılmalıdır. Həkimlər günvurmadan qorunmaq üçün günəş şüalarının daha intensiv olduğu saatlarda açıq havada uzun müddət qalmamağı tövsiyə edirlər. Z. Quliyev qeyd edib ki, zərurət olmadıqda saat 11:00-dan 17:00-dək çölə çıxmamaq, açıq havada görüləcək işləri səhər saatlarına və ya axşam 17:00-dan sonraya planlaşdırmaq daha məqsədəuyğundur. A. Qeybulla isə xüsusilə günəş radiasiyasının daha güclü hiss olunduğu saatlarda birbaşa günəş altında qalmağın təhlükəli olduğunu vurğulayıb.

Mütəxəssislərin sözlərinə görə, profilaktik tədbirlər də böyük əhəmiyyət daşıyır. Açıq rəngli, xüsusilə ağ rəngli, yüngül və pambıq geyimlərdən istifadə etmək, enli kənarlı papaq və gün eynəyi taxmaq, kölgəlik yerlərə üstünlük vermək, gün ərzində kifayət qədər su qəbul etmək orqanizmi yüksək temperaturun mənfi təsirlərindən qorumağa kömək edir. Susuzluq hissi yaranmasını gözləmədən mütəmadi su içilməsi, alkoqollu və həddindən artıq şəkərli içkilərdən uzaq durulması da tövsiyə olunur.

Həkimlər vurğulayırlar ki, yay aylarında sadə təhlükəsizlik qaydalarına əməl etmək günvurma və istivurma riskini əhəmiyyətli dərəcədə azaldır. Xüsusilə risk qrupuna daxil olan şəxslərin isti hava şəraitində daha ehtiyatlı davranması, orqanizmin verdiyi xəbərdarlıq siqnallarını nəzərə alması və zərurət yarandıqda vaxt itirmədən tibbi yardım alması ağır fəsadların qarşısını almaqda həlledici rol oynayır.

*"Vaxtında tibbi yardım göstərilmədikdə isə bu vəziyyət həyati təhlükə yarada, hətta ölümlə nəticələnə bilər*

***✍ Sevinc***

## XƏBƏRİNİZ OLSUN...



■ İşğaldan azad olunan Xocavənd və Şuşa rayonlarına növbəti köç prosesi gerçəkləşib. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, bu mərhələdə Xocavənd rayonunun Quzeyxırman kəndinə 21 ailə (87 nəfər), Güneyxırman kəndinə 18 ailə (72 nəfər) və Şuşa rayonunun Kiçik Qaladərəsi kəndinə 15 ailə (51 nəfər) köçürülüb.

---

■ ABŞ Energetika Nazirliyi 2026-cı il üçün "Brent" markalı etalon neftin orta qiyməti ilə bağlı proqnozunu 95,39 ABŞ dollarından 81,91 dolları dək azaldıb. 2026-ci ildə WTI (West Texas Intermediate) markalı neftin qiymətinin 76,26 dollar (öncəki proqnoz - 88,32 dollar) səviyyəsində olacağı ehtimal olunur.

---

■ ABŞ Konqresinin hər iki partiyasından olan qanunvericilər NATO-nun Ankara sammiti çərçivəsində Rusiyaya qarşı yeni sanksiyaların qəbulunu sürətləndirmək üçün ABŞ Maliyyə Nazirliyinə təzyiq göstərməyi planlaşdırırlar. Bu barədə "The Wall Street Journal" məlumat yayıb.

---



■ Suqovuşanda işçiləri daşıyan mikroavtobus aşıb. "Hunday" markalı mikroavtobus hərəkətdə olarkən sürücü idarəetməni itirib. Nəticədə nəqliyyat vasitəsi yol kənarındakı dərəyə aşıb. İlkin məlumata görə, qəza nəticəsində 6 nəfər xəsarət alıb. Onlardan 3-ü Mingəçevirdəki özəl xəstəxanaya, digər 3 nəfər isə Bərdə Diaqnostika Mərkəzinə yerləşdirilib.

---

■ İngiltərənin "Fulhem" klubu ispan mütəxəssis Alvaro Arbeloanın baş məşqçi vəzifəsinə təyin olunduğunu elan edib. Bu barədə məlumat London təmsilçisinin rəsmi saytında verilib. 43 yaşlı mütəxəssislə 2029-cu ilin yayına qədər qüvvədə olacaq üç illik müqavilə imzalanıb.

---

■ Venesuelada zəlzələ nəticəsində həlak olanların sayı 3 685 nəfərə çatıb. Bu barədə Venesuela Bolivar Respublikası Milli Assambleyasının sədri Xorxe Rodriges özünün sosial şəbəkə hesabında məlumat yayıb.

---



■ Azərbaycan ilə Boliviya arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur. "Bu əlamətdar gün münasibətilə dost Boliviya xalqına və dövlətinə ən səmimi təbriklərimizi çatdırır, ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın bundan sonra daha da inkişaf edəcəyinə ümid edirik!", - XİN-in paylaşımında qeyd olunub.

---

■ Çinin cənub-qərbindəki Sıçuan əyalətində 5 maqnitudalı zəlzələ baş verib. Bu barədə "Sinxua" agentliyi Çinin Seysmik Şəbəkələr Mərkəzinə (CENC) istinadən məlumat yayıb.

---

■ Azərbaycanda yanvar-iyun aylarında yararlıq müddəti bitmiş, saxlanma şərtlərinə riayət edilməyən və dövlət qeydiyyatı olmayan 157 adda, ümumilikdə 418 qutu dərman vasitəsi satışdan kənarlaşdırılıb. Bu barədə Analitik Ekspertiza Mərkəzindən (AEM) məlumat verilib.

# Türkiyəyə səfər etmiş 7 ABŞ prezidenti



## Araşdırma

**_ABŞ Prezidenti Donald Tramp 7-8 iyul tarixlərində Ankarada keçiriləcək NATO Dövlət və Hökumət Başçıları Zirvə Toplantısında iştirak etmək üçün Türkiyəyə gəlib. Müdafiə xərclərinin artırılması, Rusiya-Ukrayna müharibəsi, NATO-nun cənub cinahında təhlükəsizlik təhdidləri və Yaxın Şərqdəki son hadisələr müttəfiqlərin zirvə toplantısında əsas gündəm məsələləri arasındadır. Ən maraqlı məqam, ABŞ prezidentinin bu səfərdə Türkiyənin hərbi-müdafiə sahəsində gözləntilərini doğruldub-doğrultmayacağıdır._**

Yəni, hələ Vaşinqtondaykən Tramp Ankaraya Türkiyəni "sevindirəcək paketlə" gedəcəyini demişdi, hansı ki, bu paketdə F-35lər. Patriotlar və sair ola bilərdi. Zirvənin ikinci günü olsa da, bu gözləntilərin heç biri reallaşmadı, sadəcə Tramp bir-iki vəd verdi, vəssalam.

Qeyd edək ki. son 70 ildə Ankaraya səfər edən yeddi Amerika prezidentinin hər səfəri beynəlxalq sistemin dəyişdiyi kritik dövrlərə təsadüf edib. Soyuq müharibə-nin ən sərt günlərində Duayt D. Eyzenhauer antikommunist strategiyasını izah etmək üçün Ankaraya gəlib, Corc Buş Soyuq müharibə-dən sonra müttəfiqləri ilə "Yeni Dünya Nizamı" vizyonunu bölüşdüb, Bill Klinton Türkiyənin qlobal enerji dəhlizindəki rolunu vurğulayan müqavilələrin şahidi olubu, Barak Obama əvvəlcə "nümunəvi tərəfdaşlıq" gündəliyi ilə, sonra isə Suriya müharibəsi və terrorizmə qarşı mübarizə ilə Türkiyəyə səfər edib. 1959-cu ildən bu günə qədər Türkiyəyə səfər edən ABŞ prezidentləri, bu səfərlərin baş tutduğu beynəlxalq kontekst və Ankara-Vaşinqton xəttində buraxdıqları diplomatik izlər aşağıdakılardır:

### 1959-cu il: Prezident Eyzenhauerin səfəri

**1950-ci illərin sonları ABŞ ilə SSRİ arasında Soyuq Müharibə rəqabətinin ən şiddətli dövrlərindən biri idi. 1956-cı il Süveyş böhranından sonra Yaxın Şərqdə yaranan güc boşluğu 1958-ci il Livan böhranı və İraqdakı hərbi çevrilişlə daha da dərinləşdi; Sovet İttifaqı diplomatik arenada güclənərkən, 1957-ci ildə Sputnik peykini kosmosa göndərərək Vaşinqtona texnoloji üstünlük mesajı göndərdi.**

Bundan sonra ABŞ-ın o vaxtkı prezidenti Duayt D. Eyzenhauer Yaxın Şərqdə Sovet təsirini məhdudlaşdırmağı hədəfləyən eyniadlı doktrinasını elan etdi. NATO-nun cənub-şərq cinahında yerləşən və Yaxın Şərqə açılan qapı rolunu oynayan Sovet İttifaqı ilə uzun quru sərhədini bölüşən Türkiyə bu strategiyada əsas ölkəyə çevrildi. Prezident Ankaraya Avropa, Asiya və Afrikanın on bir paytaxtına aparacaq "Xoşməramlı" turunun bir hissəsi olaraq gəldi. Eyzenhauerin 6 dekabr 1959-cu ildə Ankaraya səfəri, ABŞ prezidentinin Türkiyəyə ilk rəsmi səfəri olduğu üçün iki ölkə arasındakı münasibətlərdə tarixi bir dönüş nöqtəsi sayılır.

Eyni zamanda, Türkiyə ağır iqtisadi böhranla mübarizə aparırdı. 1958-ci ildəki böyük devalvasiyadan və BVF ilə imzalanan ilk sabitləşdirmə proqramından sonra Adnan Menderes hökuməti Eyzenhauerin səfərini həm strateji tərəfdaşlığı gücləndirmək, həm də Vaşinqtondan iqtisadi dəstək və yeni kreditlər almaq üçün əhəmiyyətli bir fürsət kimi görürdü. Səfərin siyasi kulminasiyası Türkiyə Böyük Millət Məclisində baş tutdu. Eyzenhauer çıxışında türk və Amerika xalqlarının azadlıq idealına sadiqliyini vurğulayaraq, Türkiyənin NATO və CENTO daxilindəki rolunu təriflədi. Lakin Ankaranın gözlədiyi hərtərəfli iqtisadi yardım reallaşmadı.

### 1991-ci il: Corc Buş səfəri

**1990-cı ildə başlayan Birinci Körfəz Müharibəsi Yaxın Şərqdə güc balansını yenidən formalaşdırdı.** Elə bu vaxtda Eyzenhauerin tarixi səfərindən 32 il sonra ABŞ-dan Türkiyəyə daha bir vacib səfər baş tutdu - prezident Corc Buş Ankaraya gəldi. Prezident Buş ABŞ-ın "lider" mövqeyində yer alacağı və kapitalist siyasətinin üstünlük təşkil edəcəyi "Yeni Dünya Nizamı" adlandırılan beynəlxalq sistem tətbiq etdikcə, BMT koalisiyasını tam dəstəkləyən, Kərkük-Yumurtalıq neft kəmərini bağlayan və İncirlik Hava Bazasını koalisiya qüvvələri üçün açan Türkiyə Vaşinqtonun bölgədəki ən vacib tərəfdaşlarından birinə çevrildi. Buşun 20-22 iyul 1991-ci il tarixlərində Ankara və İstanbula səfəri Soyuq Müharibə-dən sonra iki ölkə arasında münasibətlərin yeni çərçivəsini formalaşdıran ilk yüksək səviyyəli təmaslardan biri idi. Bu vaxt Türkiyə Körfəz müharibəsinin ağır iqtisadi və humanitar nəticələri ilə üzləşirdi. Sanksiyalar və turizm gəlirlərinin azalması iqtisadiyyata ağır zərbə vururdu, İraqdan gələn yüz minlərlə qaçqın isə sərhəd bölgəsində əhəmiyyətli yük yaradırdı. Turqut Özal Buşun səfərini həm Türkiyənin strateji əhəmiyyətini gücləndirmək, həm də müharibənin vurduğu iqtisadi itkilərin kompensasiyasını təmin etmək, hərbi modernləşdirmə dəstəyi və ticarətin asanlaşdırılması üçün vacib bir fürsət kimi qiymətləndirdi.

Buş Ankarada keçirdiyi görüşlərdə Türkiyənin Qərb ittifaqı daxilindəki mövqeyini tərifləyib və iki ölkə arasındakı strateji tərəfdaşlığın yeni dövrdə də davam edəcəyi mesajını çatdırıb. Sonda müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlıq təsdiqlənib, lakin Ankaranın hərtərəfli iqtisadi dəstək, ticarət güzəştləri və yüksək kompensasiya tələbləri ilə bağlı gözləntiləri doğrulmayıb.

### 1999-cu il: Bill Klintonun səfəri

**2000-ci illər NATO-nun Kosovoya müdaxiləsindən sonra Balkanlarda yeni təhlükəsizlik qaydasının qurulduğu və Xəzər hövzəsindən enerji ehtiyatlarının qlobal bazarlara daşınması üçün rəqabətin gücləndiyi bir dövr idi.**

ABŞ Prezidenti Bill Klinton Rusiyadan yan keçərək Xəzər neftini Aralıq dənizinə daşıyacaq Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərini Vaşinqtonun əsas prioritetlərindən biri etmişdi.

Balkanlardakı NATO əməliyyatlarına dəstəyi və enerji dəhlizlərindəki əsas mövqeyi ilə Türkiyə ABŞ-ın Avrasiya strategiyasında mərkəzi rol oynayırdı. Klintonun 14-19 noyabr 1999-cu il tarixlərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) İstanbul Zirvə Toplantısının bir hissəsi olaraq İstanbula səfəri bu strateji tərəfdaşlığın ən vacib dönüş nöqtələrindən biri idi.

Bu arada, Türkiyə həmin ilin 17 avqust Mərmərə zəlzələsinin yaralarından qurtulmağa çalışırdı. Bülent Ecevit və Süleyman Dəmirəl Klintonun səfərini həm zəlzələdən sonra beynəlxalq dəstəyi gücləndirmək, həm də BTC layihəsinə siyasi təkan vermək üçün əhəmiyyətli bir fürsət kimi qiymətləndirdilər. Diplomatik baxımdan səfərin ən vacib nəticəsi İstanbulda Bakı-Tbilisi-Ceyhan neft kəməri üçün çərçivə sazişlərinin imzalanması olub. Klinton həmçinin Türkiyə Böyük Millət Məclisindəki çıxışında Türkiyənin 21-ci əsrdəki strateji rolunu vurğulayaraq iki ölkə arasındakı tərəfdaşlığa güclü dəstəyini ifadə edib.

### 2004-cü il: Corc Buşun səfəri

**2000-ci il 11 sentyabr hücumlarından sonra ABŞ-ın Əfqanıstan və İraqa hücum etdiyi və beynəlxalq siyasətin "Qlobal Terrorla Mübarizə" adlanan münaqişə mühiti ilə formalaşdığı bir dövr idi. İraq müharibəsinin yaratdığı beynəlxalq mübahisələrə görə Vaşinqton NATO vasitəsilə müttəfiqləri ilə münasibətlərini gücləndirməyə çalışırdı.**

Bu kontekstdə Corc Buş 27-29 iyun 2004-cü il tarixlərində İstanbulda keçirilən 2004-cü il İstanbul NATO Zirvə Görüşü üçün Türkiyəyə gəlib.

Səfər Türkiyə-Amerika münasibətlərində ən gərgin dövrlərdən birində baş tutub. Türkiyə Böyük Millət Məclisinin 1 mart 2003-cü il tarixli qətnaməni rədd etməsi və ardınca Süleymaniyyədə baş verən "işdən çıxarılma hadisəsi" iki ölkə arasında ciddi etimad böhranı yaradıb.

Buna baxmayaraq, o vaxtkı prezident Əhməd Necdət Sezər və baş nazir Rəcəb Tayyib Ərdoğan Buşun səfərini münasibətləri yenidən yoluna qoymaq, İraqın gələcəyi ilə bağlı ortaq məxrəc tapmaq və PKK-nın Şimali İraqdakı mövcudluğuna qarşı Vaşinqtondan daha güclü dəstək almaq üçün vacib fürsət kimi görürdülər.

> *Hələ Vaşinqtondaykən Tramp Ankaraya Türkiyəni "sevindirəcək paketlə" gedəcəyini demişdi*

Bugünkü kimi fövqəladə təhlükəsizlik tədbirləri altında keçirilən zirvə görüşündə Buş Türkiyənin NATO daxilində strateji rolunu tərifləyib, həmçinin Türkiyənin Avropa Birliyinə üzvlük prosesini dəstəkləyib. Lakin Ankaranın PKK-ya qarşı daha konkret addımlar atması yönümündə gözləntiləri doğrulmadı. Səfər 1 mart qətnaməsindən sonra pisləşən münasibətlərdə diplomatik dialoqu canlandırsa da, İraq siyasəti və terrorizmlə mübarizə ilə bağlı fikir ayrılıqlarını aradan qaldırmadı.

### 2009-cu il: Barak Obamanən səfəri

**2000-ci illərin sonları ABŞ-ın İraq müharibəsinin yaratdığı regional dağıntıları bərpa etməyə, Əfqanıstandakı hərbi mövcudluğunu yenidən formalaşdırmağa və 2008-ci il qlobal maliyyə böhranının təsirləri ilə mübarizə aparmağa çalışdığı bir dövrə təsadüf etdi.**

Barak Obama vəzifəyə başladıqdan sonra müsəlman icmaları ilə münasibətlərdə "yeni başlanğıc" məqsədini ortaya qoydu və bu yanaşmanın ilk simvolik addımlarından biri kimi, 5-7 aprel 2009-cu ildə Türkiyəyə ilk xarici səfərini etdi.

Obama administrasiyası Türkiyəni, müttəfiqlərin İraqdan çıxarılmanın idarə olunmasında, Əfqanıstan əməliyyatına müttəfiq dəstəyinin saxlanılmasında və Yaxın Şərqdə zəifləyən Amerika təsirinin gücləndirilməsində "nümunəvi tərəfdaş" kimi təsvir edib. Ankara da öz növbəsində həm regional vasitəçilik səyləri, həm də NATO daxilindəki mövqeyi ilə Vaşinqton üçün əsas müttəfiq kimi fərqlənib. Böyük Millət Məclisindəki çıxışında Obama Türkiyə ilə ABŞ arasındakı münasibətləri "nümunəvi tərəfdaşlıq" adlandırıb, Türkiyənin Avropa Birliyinə üzvlüyünü dəstəklədiyini təkrarlayıb və terrora qarşı mübarizədə əməkdaşlıq mesajı çatdırıb. Danışıqlar İraqdan, Əfqanıstandan çıxarılma prosesi, NATO və regional təhlükəsizliklə bağlı ortaq iradə nümayiş etdirsə də, Türkiyənin getdikcə müstəqilləşən xarici siyasəti ilə Vaşinqtonun regional prioritetləri arasındakı fərqlər tam həll olunmadı. Buna baxmayaraq, səfər Obama administrasiyası dövründə Türkiyəyə verilən strateji əhəmiyyətin ən güclü simvollarından biri kimi qeydə alınıb.

### 2015-ci il: Obamanım növəti səfəri

**Barak Obama Türkiyəyə ikinci səfərini 15-16 noyabr 2015-ci il tarixlərində 2015-ci il G20 Antalya Zirvə Görüşü çərçivəsində etdi. Lakin bu səfər 2009-cu ilin "model tərəfdaşlıq" ritorikasından tamamilə fərqli bir beynəlxalq kontekstdə baş tutdu.**

Ərəb Baharından sonra Suriya Vətəndaş Müharibəsi regional proksi müharibəsinə çevrildi, milyonlarla qaçqın qonşu ölkələrə və Avropaya üz tutdu, İŞİD İraq və Suriyada böyük bir əraziyə nəzarəti ələ keçirdi. Obama administrasiyasının prioriteti artıq İraqdan geri çəkilməni idarə etmək deyil, beynəlxalq koalisiya ilə İŞİD-i geri itələmək və Suriya böhranını nəzarət altında saxlamaq idi.

Antalyada görüşən liderlər qlobal artımı, eləcə də kəşfiyyat paylaşımı, sərhəd təhlükəsizliyi və terrorizmin maliyyələşdirilməsinin qarşısının alınmasını müzakirə etdilər. Paris hücumları, Suriyadakı müharibə və İŞİD-ə qarşı əməliyyatlar Obama və Rəcəb Tayyib Ərdoğan arasındakı müzakirələrdə əsas mövzular idi. Obama Türkiyənin koalisiyaya verdiyi dəstəyi yüksək qiymətləndirdi və hər iki lider terrorizmə qarşı birgə mübarizə mesajı göndərdi. Lakin görüşlərin pərdəarxası iki müttəfiq arasında strateji fikir ayrılıqları getdikcə daha aydın görünürdü. Ankara Suriyanın şimalında uçuşa qadağan olunmuş təhlükəsiz zonanın yaradılmasını və Suriya daxilində qaçqın axınının nəzarətdə saxlanılmasını müdafiə etsə də, Vaşinqton birbaşa hərbi müdaxiləni genişləndirməkdənsə, hava əməliyyatları və yerli tərəfdaşlar vasitəsilə irəliləməyə üstünlük verirdi. Eyni dövrdə ABŞ-ın İŞİD-ə qarşı mübarizədə YPG ilə əməkdaşlığı Türkiyənin ən əhəmiyyətli təhlükəsizlik etirazlarından birinə çevrildi.

Sammitin sonunda qəbul edilən Antalya Bəyannaməsində terrorizmin maliyyələşdirilməsinin qarşısının alınması, sərhəd təhlükəsizliyinin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın artırılması vurğulanırdı. Lakin Türkiyənin milyonlarla suriyalı qaçqının yükünü bölüşməklə bağlı gözləntiləri konkret beynəlxalq maliyyələşdirmə mexanizminə çevrilmədi...

✍ *Vüsal Tağıbəyli*



# Azərbaycanın yeni rəqəmsal inkişaf düsturu

## Texnologiya

◂ əvvəli 3-cü səhifədə

Onun sözlərinə görə, vətəndaşlar baxımından bu islahat, ilk növbədə, onlarla fərqli platformada ayrı-ayrılıqda qeydiyyatdan keçmək məcburiyyətini və şifrə xaosunu aradan qaldıraraq rəqəmsal xidmətlərə çıxışı vahid pəncərə ("single window") prinsipi ilə tək bir məkanda cəmləşdirir: "Bu mərkəzləşmə vətəndaşların dövlət xidmətlərinə əlçatanlığını asanlaşdırır, bürokratik vaxt itkisini minimuma endirir və kütləvi şəkildə rəqəmsal savadlılıq və kiber-gigiyena standartlarının yüksəlməsinə birbaşa rəvac verir.

Dövlət idarəçiliyi baxımından isə bu inteqrasiya, mərkəzləşdirilmiş yeni rəqəmsal memarlığın qurulması və dövlət büdcəsinin optimallaşdırılması üçün fundamental zəmindir. Dağınıq və izolyasiya olunmuş sistemlərin vahid ekosistemdə birləşdirilməsi, Milli Məlumat Hövzəsi və "hökumət buludu" (G-cloud) infrastrukturu üzərindən qurumlararası real vaxt rejimində data mübadiləsini sürətləndirir və fərqli orqanlarda eyni məlumatların təkrarən toplanmasının qarşısını alır. Eyni zamanda, hər bir qurumun fərdi rəqəmsal infrastruktur saxlaması üçün çəkilən xərclərə qənaət edilir, kiber-təhlükəsizlik idarəetməsi vahid perimetr daxilində mərkəzləşir və fərdi məlumatların qorunması daha dayanıqlı struktura keçir. Nəticədə, proseslərin tam rəqəmsallaşması idarəetmədə şəffaflığı kəskin artıraraq Azərbaycanın beynəlxalq elektron hökumət reytinqlərindəki rəqabətədavamlı mövqeyini keyfiyyətcə yeni mərhələyə yüksəldir".

■ **Millət vəkili Azər Allahverənov bildirir ki, Rəqəmsal İnkişaf Şurasının ilk iclasının keçirilməsi, şübhəsiz ki, Azərbaycanda Rəqəmsal İnkişaf Strategiyasından irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi istiqamətində konkret siyasətin müəyyənləşdirilməsi baxımından olduqca mühüm hadisədir:** "Bu gün rəqəmsal inkişaf dövlətin prioritet istiqamətlərindən biri kimi dəyərləndirilir. Şuranın fəaliyyəti də məhz bu sahədə özünü göstərən çağırışlara adekvat siyasi kursun həyata keçirilməsi, qarşıda duran vacib vəzifələrin müəyyənləşdirilməsi və aidiyyəti qurumların atmalı olduqları addımlara vahid yanaşmanın formalaşdırılmasına xidmət edir. Bu baxımdan, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Şuranın işinə sədrlik edən şəxs kimi səsləndirdiyi fikirlər həqiqətən də müasir dövrün ən aktual mövzularından biri kimi qiymətləndirilməlidir". Millət vəkili vurğulayır ki, ayrı-ayrı dövlət qurumlarının portal və mobil tətbiqlərinin vahid ekosistemə inteqrasiya olunması olduqca mütərəqqi addımdır: "Burada rəqəmsal müstəvidə yeni bir yanaşmanın tətbiq olunduğunu görürük. Bu yanaşma vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsinə səbəb ola bilər. Biz hər zaman dövlət xidmətlərindən istifadə edən vətəndaşların məmnunluğunu ön plana çəkirik. Belə bir ekosistemin qurulması da bütövlükdə vətəndaş məmnunluğunun artmasına, nəticə etibarilə isə onların dövlət qurumlarına etimadının daha da möhkəmlənməsinə xidmət edəcək. Bu baxımdan, mən bunu olduqca mütərəqqi addım hesab edirəm. Burada bir məqamı da yaddan çıxarmamalıyıq. Bu gün ASAN Xidmət modeli sayəsində vətəndaşlar bir məkanda müxtəlif dövlət qurumlarının xidmətlərindən rahat şəkildə yararlana bilirlər. İndi isə söhbət bütün dövlət xidmətlərinin vahid platforma üzərindən inteqrasiya olunmuş şəkildə təqdim edilməsindən gedir. Bu, rəqəmsal transformasiya dövrünün tələblərinə tam cavab verən və olduqca vacib yanaşmadır.

> *Nəticə etibarilə Azərbaycan dünyada gedən sürətli rəqəmsal inkişaf prosesinin ayrılmaz hissəsinə çevriləcək*

Eyni zamanda süni intellekt bu proseslərin daha səmərəli idarə olunmasına ciddi töhfə verə bilər. Bunun nəticəsində vətəndaş məmnunluğu yüksələcək, dövlət qurumlarına etimad daha da güclənəcək, göstərilən xidmətlərin keyfiyyəti daha obyektiv qiymətləndiriləcək və xidmət sahəsində şəffaflıq təmin olunacaq.

Nəzərə almaq lazımdır ki, bu gün süni intellekt çox sürətlə bütün sahələrə transformasiya olunur. Demək olar ki, artıq onun tətbiq edilmədiyi sahə yoxdur. Bu baxımdan, dövlət qurumlarının göstərdiyi xidmətlərin vahid mobil tətbiq üzərindən inteqrasiya olunmuş şəkildə təqdim edilməsi həm də həmin xidmətlər üzərində nəzarətin gücləndirilməsinə imkan verəcək. Bu, xidmət keyfiyyətinin ölçülməsi, müraciətlərə vaxtında baxılması, sonrakı mərhələlərdə zəruri addımların müəyyənləşdirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir".

A.Allahverənov hesab edir ki, Rəqəmsal İnkişaf Strategiyasının əsas prinsiplərindən biri də məhz rəqəmsal transformasiya şəraitində, o cümlədən süni intellekt imkanlarından maksimum istifadə olunmasıdır: "Nəzərə alsaq ki, süni intellektin yaratdığı imkanların hüdudları demək olar ki, yoxdur. Bu texnologiya bir çox istiqamətlər üzrə yeni nailiyyətlərin və mühüm dəyişikliklərin baş verməsinə şərait yaradır. Xüsusilə də nəzərə almalıyıq ki, süni intellekt çox sürətlə həyatımıza daxil olur və bəzən fərqinə varmadan onun formalaşdırdığı reallıq daxilində fəaliyyət göstəririk, bu prosesə uyğunlaşmaq artıq zərurətə çevrilib. Bu baxımdan hesab edirəm ki, elə bir ekosistem formalaşdırılmalıdır ki, o, insanların xidmətində olmaqla yanaşı, özünü daim təkmilləşdirə, xidmət keyfiyyətini daha da yüksəldə bilsin. Bu isə göstərilən xidmətlərin daha müasir və daha təkmil şəkildə həyata keçirilməsi üçün əlavə imkanlar yaradacaq. Nəticə etibarilə Azərbaycan dünyada gedən sürətli rəqəmsal inkişaf prosesinin ayrılmaz hissəsinə çevriləcək və bu, gündəlik həyatımızın daha dinamik, daha səmərəli və daha uğurlu təşkilinə mühüm töhfə verəcək".

✍ *Sevinc*

# Abşeron qazanır, bölgələr itirir...

***Azərbaycanda son beş ildə 14-29 yaşlı gənclərin ümumi sayı cəmi 16 min nəfərdən bir qədər çox artsa da, regionlar üzrə mənzərə tamamilə fərqlidir. Dövlət Statistika Komitəsinin 2022-2026-cı illəri əhatə edən məlumatları göstərir ki, gənclər getdikcə daha çox Bakıətrafı ərazilərdə və iri şəhərlərdə cəmləşir, ölkənin bir sıra rayonlarında isə onların sayı sürətlə azalır. Ən böyük artım Abşeron rayonunda qeydə alınıb. Beş il ərzində burada 14-29 yaşlı əhalinin sayı təxminən 14 min nəfər artıb.***



## Sosial



**Əli Əlirzayev,**
iqtisadçı-ekspert

Sumqayıt şəhəri və Bakının Xəzər rayonu da ən yüksək artım müşahidə olunan ərazilər sırasındadır. Mütəxəssislər bunu paytaxtətrafı yaşayış massivlərinin genişlənməsi, yeni mənzil layihələri, iş imkanlarının artması və nəqliyyat infrastrukturunun yaxşılaşması ilə əlaqələndirirlər. Əksinə, Bakının mərkəzi rayonları - Nəsimi, Yasamal və Nərimanov gənclərin sayının ən çox azaldığı ərazilər olub. Bunun əsas səbəblərindən biri gənc ailələrin daha münasib qiymətə mənzil əldə etmək üçün Abşeron və Sumqayıta köçməsidir. Mərkəzi rayonlarda mənzil qiymətlərinin yüksək olması bu prosesi daha da sürətləndirir. Diqqət çəkən digər məqam isə bir sıra regionlarda gənclərin sayının azalmaqda davam etməsidir. Zaqatala, Balakən, Tovuz, Qax, Gədəbəy və digər rayonlarda qeydə alınan azalma daxili miqrasiyanın davam etdiyini göstərir. Ekspertlər hesab edirlər ki, bu tendensiyanın əsas səbəbləri bölgələrdə məşğulluq imkanlarının məhdudluğu, ali təhsil müəssisələrinin əsasən böyük şəhərlərdə yerləşməsi və gənclərin daha yüksək gəlir perspektivi axtarmasıdır. Xaricə təhsil və iş məqsədilə miqrasiya da bu prosesə müəyyən təsir göstərir. Demoqrafik amillər də mənzərəyə təsirsiz ötüşmür. Son illərdə doğum səviyyəsinin azalması bəzi rayonlarda gənc əhalinin sayının artım tempini zəiflədib. Bu isə gələcəkdə əmək bazarı və regionların sosial-iqtisadi inkişafı baxımından yeni çağırışlar yarada bilər.

> “
>
> *Gənclərin, əsasən, Bakı, Abşeron və Sumqayıt istiqamətində cəmləşməsi təsadüfi deyil və bu, iqtisadi imkanların həmin ərazilərdə daha çox toplanmasının nəticəsidir*

Mütəxəssislərin fikrincə, bölgələrdə yeni iş yerlərinin yaradılması, universitet və peşə təhsili imkanlarının genişləndirilməsi, həmçinin yaşayış və sosial infrastrukturun inkişafı gənclərin regionlarda qalmasını stimullaşdıra bilər. Əks halda, gənclərin iri şəhərlərə axını davam edəcək və regionlar arasında demoqrafik balansın pozulması daha da dərinləşəcək. Statistika bir daha göstərir ki, məsələ təkcə gənclərin sayının artıb-azalması deyil. Əsas məsələ onların ölkə daxilində necə və harada cəmləşməsidir. Son beş ilin rəqəmləri Azərbaycanda urbanizasiya prosesinin sürətləndiyini və gənclərin iqtisadi imkanların daha çox olduğu ərazilərə üstünlük verdiyini aydın şəkildə ortaya qoyur.

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Əli Əlirzayev də bildirib ki, son beş ilin statistikası Azərbaycanda gənclərin məskunlaşma xəritəsinin dəyişdiyini və daxili miqrasiya prosesinin daha da sürətləndiyini göstərir.** Onun sözlərinə görə, gənclərin əsasən Bakı, Abşeron və Sumqayıt istiqamətində cəmləşməsi təsadüfi deyil və bu, iqtisadi imkanların həmin ərazilərdə daha çox toplanmasının nəticəsidir.

Ekspert qeyd edib ki, gənclər ilk növbədə sabit gəlir, karyera perspektivi, keyfiyyətli təhsil və müasir həyat şəraiti olan yerləri seçirlər. Bu səbəbdən də paytaxtətrafı ərazilərdə gənc əhalinin artması müşahidə olunur. Əksinə, bölgələrdə yüksək maaşlı iş yerlərinin azlığı, peşəkar inkişaf imkanlarının məhdudluğu və ali təhsil müəssisələrinin əsasən böyük şəhərlərdə cəmləşməsi rayonlardan miqrasiyanı sürətləndirən əsas amillərdir. Ə.Əlirzayevin fikrincə, bu proses təkcə demoqrafik deyil, həm də iqtisadi xarakter daşıyır. O bildirir ki, əmək qabiliyyətli və savadlı gənclərin bölgələri tərk etməsi yerli iqtisadi fəallığın zəifləməsinə, sahibkarlığın inkişaf tempinin aşağı düşməsinə və investisiya cəlbediciliyinin azalmasına səbəb ola bilər. Nəticədə regionlar arasında sosial-iqtisadi inkişaf fərqi daha da dərinləşə bilər.

İqtisadçı vurğulayıb ki, statistika doğum səviyyəsinin azalması fonunda qiymətləndirildikdə vəziyyət daha ciddi görünür. Onun sözlərinə görə, əgər bir tərəfdən gənclər rayonlardan köçür, digər tərəfdən isə yeni doğulanların sayı azalırsa, yaxın illərdə bəzi bölgələrdə əmək bazarı və sosial infrastruktur üçün əlavə problemlər yarana bilər.

Ə.Əlirzayev hesab edir ki, bu tendensiyanın qarşısını almaq üçün regionlarda yalnız yeni iş yerləri yaratmaq kifayət deyil. Onun fikrincə, yüksək əməkhaqqı təklif edən istehsal və xidmət sahələrinin inkişafı, kiçik və orta sahibkarlığın dəstəklənməsi, universitet və peşə təhsili müəssisələrinin imkanlarının genişləndirilməsi, eləcə də rəqəmsal və nəqliyyat infrastrukturunun gücləndirilməsi vacibdir. Ekspert bildirib ki, gənc yaşadığı rayonda həm təhsil ala, həm işləyə, həm də layiqli gəlir əldə edə biləcəyi perspektivi görərsə, daxili miqrasiya da əhəmiyyətli dərəcədə azalacaq. Onun sözlərinə görə, urbanizasiya istənilən ölkədə təbii prosesdir. Lakin bu proses regionların inkişafı hesabına baş verərsə, uzunmüddətli perspektivdə həm iqtisadi, həm də demoqrafik baxımdan ciddi problemlər yarada bilər. Buna görə də ölkənin regional inkişaf siyasətində əsas məqsəd iqtisadi imkanların daha balanslı şəkildə bölüşdürülməsi olmalıdır.

*✍ **Sevinc***

## Cəmiyyət

***İllərlə çəkilən zəhmət, aylardır davam edən gərgin hazırlıq, ailələrin böyük ümidləri... Beləcə, ali məktəblərə qəbul imtahanları hər il minlərlə gəncin taleyində mühüm mərhələ kimi qiymətləndirilir. Təəssüflər olsun ki, bəzən imtahanın nəticəsi bəzi gənclər tərəfindən həyatın son hökmü kimi qəbul edilir. Nəticədə sarsıdıcı xəbərlər yayılır: aşağı bal topladığı və ya istədiyi ali məktəbə qəbul ola bilmədiyi üçün intihar etdi.***



# İmtahansonrası depressiya

Bu hadisələr hər dəfə eyni sualları gündəmə gətirir - problem imtahanın nəticəsidir, yoxsa gəncləri bu çıxılmaz nöqtəyə aparan başqa səbəblər var? Valideynlərin yüksək gözləntiləri, cəmiyyətin “uğur” anlayışı bu prosesdə hansı rolu oynayır? Mütəxəsislər bu və digər suallara “Həftə içi” qəzetində aydınlıq gətirir.

■ **Üzeyir Səfiyev, sosioloq:**

- Burada həm abituriyentin, həm də valideynin müəyyən məsuliyyət payı mövcuddur. Bəzən, abituriyentlər öz imkanlarını düzgün qiymətləndirmədən hədəflər müəyyənləşdirirlər. Maksimalist yanaşma nümayiş etdirir, lakin real imkanları həmin məqsədlərə çatmağa kifayət etmədikdə ciddi məyusluq yaşayırlar. Bu isə imtahandan istənilən nəticəni əldə edə bilmədikdə ağır psixoloji sarsıntıya səbəb olur. Belə hallarda abituriyent aqressivləşə, özünə qapana, depressiv vəziyyətə düşə, müxtəlif psixoloji pozuntular yaşaya bilər.

> “
>
> *Digər mühüm səbəb valideynlərin övladlarından həddindən artıq gözləntiləridir*

Digər mühüm səbəb valideynlərin övladlarından həddindən artıq gözləntiləridir. Gözlənilən nəticə əldə olunmadıqda isə tənqid, irad və müqayisələr başlayır. Bu da abituriyentdə güclü günahkarlıq hissi formalaşdırır. Özünü ailəsini məyus etməkdə günahkar hesab edən gənc bəzən çıxış yolunu özünü cəzalandırmaqda görür. Bu isə həm psixoloji, həm də psixosomatik problemlərin yaranmasına, ən ağır hallarda isə intihara qədər gedib çıxa bilər. Digər mühüm məsələ sınaq imtahanları ilə bağlıdır. Sınaq imtahanları real qəbul imtahanlarının mümkün qədər dəqiq simulyasiyası olmalıdır. Təəssüf ki, bəzi abituriyentlər müxtəlif səbəblərdən mütəmadi sınaq imtahanlarında iştirak edə bilmirlər. Nəticədə onlar real imtahan mühitinə psixoloji cəhətdən hazır olmurlar və daha güclü stress yaşayırlar. Əgər sınaq imtahanları real imtahanın modeli kimi təşkil olunsa, abituriyent həmin gərginliyi əvvəlcədən yaşayaraq ona adaptasiya olar. Bu isə əsas imtahanda stressin əhəmiyyətli dərəcədə azalmasına kömək edər.

Bundan başqa, həm valideynlərin, həm də abituriyentlərin nəticələri başqaları ilə müqayisə etməsi də ciddi problemdir. Bütün bunların qarşısını almaq üçün ilk növbədə sınaq imtahanları hər bir abituriyent üçün əlçatan olmalı, real imtahanın simulyasiyası formasında keçirilməlidir. Valideynlər bu dövrdə övladlarının yanında olmalı, onları tənqid etmək əvəzinə dəstəkləməlidirlər. Onlara aşılamalıdırlar ki, qəbul imtahanı həyat yolunun yalnız bir mərhələsidir. Bu, həyatın sonu deyil və uğursuz nəticə gələcək uğurun mümkünsüz olduğu anlamına gəlmir. Abituriyentlər də bilməlidirlər ki, imtahan nəticəsi onların şəxsiyyətini və ya dəyərini müəyyən etmir. Psixoloji vəziyyət ağırlaşdığı hallarda mütləq peşəkar psixoloji dəstəyə müraciət edilməlidir. Burada utanılacaq və ya çəkiniləcək heç nə yoxdur.

■ **Almara Ağaqızı, psixiatorp-sixoloq:**

- Bu cür faciələri yalnız imtahan nəticəsi ilə izah etmək doğru olmaz. İntihar heç vaxt tək bir hadisənin nəticəsi olmur. İmtahan nəticəsi çox vaxt sadəcə son damla, son təkan rolunu oynayır. Bunun arxasında uzun müddət yığılan emosional gərginlik, özünü dəyərsiz hiss etmə, uğursuzluq qorxusu, gələcəklə bağlı ümidsizlik, ailədaxili təzyiq, sosial müqayisələr və bəzən də əvvəldən mövcud olan psixoloji problemlər dayanır. Bir çox yeniyetmə öz dəyərini yalnız topladığı bala bağlayır. Belə olduqda imtahanın nəticəsi onun gözündə sadəcə qiymət deyil, “mən kiməm?” sualının cavabına çevrilir. Halbuki insanın dəyəri heç vaxt bir imtahan nəticəsi ilə ölçülə bilməz. Valideynlərin münasibəti uşağın psixoloji dayanıqlığının formalaşmasında ən mühüm amillərdən biridir. Uşaq bilməlidir ki, uğur qazansa da, qazanmasa da ailəsinin sevgisi və dəstəyi dəyişməyəcək. Təhlükəsiz emosional mühit psixoloji sağlamlığın əsas şərtlərindən biridir. Əksər hallarda bu cür hadisələrin arxasında depressiya, güclü narahatlıq, mükəmməlliyyətçilik, özünütənqid dayanır. İmtahan həmin daxili gərginliyi görünən edən son hadisəyə çevrilir. Buna

> “
>
> *İnsanın dəyəri heç vaxt bir imtahan nəticəsi ilə ölçülə bilməz*

görə də yalnız nəticəyə deyil, yeniyetmənin ümumi emosional vəziyyətinə diqqət yetirməliyik. Psixoloji problemlər vaxtında aşkarlanıb dəstək göstərildikdə belə faciələrin qarşısını almaq mümkündür. Risk əlamətləri bəzən açıq, bəzən isə çox incə formada özünü göstərir. Yeniyetmənin özünə qapanması, insanlardan uzaqlaşması, ümidsizlik ifadə edən cümlələr işlətməsi, “məndən heç nə olmayacaq”, “hamıya yükəm”, “yaşamağın mənası yoxdur” kimi fikirlər səsləndirməsi ciddi siqnaldır. Bundan əlavə, yuxu və iştahın dəyişməsi, əvvəllər sevdiyi fəaliyyətlərə marağın itməsi, səbəbsiz aqressiya, həddindən artıq sakitləşmə, şəxsi əşyalarını paylamağa başlaması, yaxınları ilə vidalaşmağa bənzər davranışlar da diqqətdən yayınmamalıdır. Valideynlər və müəllimlər ilk növbədə mühakimə etmədən dinləməyi bacarmalıdırlar. Gənclərə öyrətməliyik ki, həyat bir imtahandan ibarət deyil.

*✍ **Arzu Zeynallı***



■ **Yaxın Şərqdə davam edən müharibənin təsirləri qlobal təbii qaz bazarını dəyişməyə davam edir. Təklifin məhdudlaşması və yüksək qiymətlər əsas bazarlarda qaza tələbatın azalmasına səbəb olur. Bu barədə Beynəlxalq Enerji Agentliyinin hesabatında bildirilir.**

Hesabatda qeyd olunur ki, cari ildə qlobal təbii qaz tələbatının 0,5% azalacağı proqnozlaşdırılır. Bu azalma əsasən elektrik enerjisi istehsalı və sənaye sektorunda qaz istehlakının aşağı düşməsi ilə əlaqədardır. Proqnoz doğrularsa, bu, son yeddi ildə qlobal qaz tələbatının illik ifadədə üçüncü dəfə azalması olacaq. BEA-nın “Gas Market Report” hesabatının üçüncü rüb buraxılışında əvvəllər qlobal mayeləşdirilmiş təbii qaz (LNG) tədarükünün təxminən 20%-nin keçdiyi Hörmüz boğazı vasitəsilə qaz daşımalarında yaranmış ciddi fasilələrin bazara təsiri təhlil edilir.



■ **“Bölgəmizdə Gürcüstan-Türkiyə-Azərbaycan formatında uğurlu əməkdaşlığın nümunəsi var. Ölkələr arasında onilliklər ərzində qurulan strateji tərəfdaşlıq bu gün təhlükəsizlik baxımından daha da böyük əhəmiyyət kəsb edir”.**

Bunu Gürcüstan Baş nazirinin müavini Maka Boçorişvili “Müttəfiqlər Ankarada” (“Allies in Ankara”) forumunda panel müzakirəsində deyib. Onun sözlərinə görə, üç ölkə arasında birgə həyata keçirilən enerji layihələri və nəqliyyat dəhlizləri bu gün tamamilə fərqli əhəmiyyət kəsb edir. XİN başçısı mövcud geosiyasi kontekstə Cənubi Qafqazın və Qara dəniz regionunun strateji əhəmiyyətinin artırdığını vurğulayıb. ”Rusiya-Ukrayna müharibəsi və Yaxın Şərqdə baş verənlər nəzərə alınmaqla, Qara dəniz bölgəsinə, Cənubi Qafqaza və Gürcüstana münasibət dəyişir”, - Boçorişvili əlavə edib.



■ **2026-cı ilin ilk yarısında Azərbaycanın Avropa İttifaqına (Aİ) təbii qaz ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 3% və ya 0,2 milyard kubmetr artıb. Bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA, BEA) hesabatında bildirilir.**

Hesabata əsasən, eyni dövrdə Şimali Afrika ölkələrindən Avropa İttifaqına boru kəmərləri ilə qaz tədarükü 5% və ya 0,8 milyard kubmetr artıb. BEA-nın məlumatına görə, 2026-cı ilin ilk yarısında Rusiyanın Avropa İttifaqına boru kəmərləri ilə qaz ixracı da illik müqayisədə 5% və ya 0,4 milyard kubmetr artıb.Hesabatda qeyd olunur ki, 2026-cı ilin ilk yarısında Rusiyanın boru kəmərləri ilə nəql etdiyi qazın Avropanın qaz tələbatında payı təxminən 8% təşkil edib. Xatırladaq ki, 2020-ci il dekabrın 31-dən TAP vasitəsilə Avropaya Azərbaycan qazının nəqlinə başlanılıb.



■ **Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ölkədə olma, yaşama, işə cəlb olunma qaydaları və digər müvafiq inzibati hüquq pozmalarla bağlı 2026-ci ilin birinci yarımili ərzində ümumilikdə 9757 qərar qəbul edilib.**

Barəsində inzibati qərar qəbul edilən əcnəbilərdən 4852 nəfəri Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı saxlanılıb. Onların ölkə ərazisində olma və yaşama hüququ verən sənədlər olmadan (qanunsuz) yaşaması, ölkəyə gəlişinin bəyan edilmiş məqsədinə uyğun olmayan fəaliyyətlə məşğul olması, qanunsuz əmək fəaliyyətinə cəlb edilməsi və ya qeydiyyat ünvanı üzrə yaşamadığı müəyyənləşdirilib. Miqrasiya qanunvericiliyini pozan 850 əcnəbi Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılıb.



■ **Maliyyə Nazirliyi tərəfindən ilk dəfə olaraq icra olunan büdcəyə dair - Azərbaycan Respublikasının 2025-ci il dövlət və icmal büdcələrinin icrasını əks etdirən “Vətəndaşın büdcə bələdçisi” hazırlanıb.**

Bu barədə nazirlikdən məlumat verilib. Bələdçidə 2025-ci il üzrə dövlət və icmal büdcələrinin icrasının əsas nəticələri, dövlət vəsaitlərinin formalaşma mənbələri və xərc istiqamətləri, makroiqtisadi göstəricilər, eləcə də dövlət maliyyəsinin idarə olunması sahəsində həyata keçirilən islahatlar sadə və anlaşılan formada təqdim edilib. Həmçinin, bələdçidə ölkəmizin müdafiə və təhlükəsizlik qabiliyyətinin gücləndirilməsi, əhalinin sosial rifahının və sosial müdafiəsinin təmin olunması, işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin davam etdirilməsi, real sektorun inkişafı əks etdirilib.



■ **2026-cı ilin yanvar-iyun aylarında “Azərbaycan Dəmir Yolları” QSC (ADY) tərəfindən 5 464 009 sərnişin daşınıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 18% çoxdur. Belə ki, 2025-ci ilin yanvar-iyun aylarında dəmir yolu nəqliyyatından 4 648 441 sərnişin istifadə etmişdi.**

Təkcə 2026-cı ilin iyun ayında ADY qatarları ilə 950 287 sərnişin daşınıb ki, bu da ötən ilin eyni ayı ilə müqayisədə 24% artım deməkdir. Müqayisə üçün qeyd edək ki, 2025-ci ilin iyun ayında daşınan sərnişinlərin sayı 766 715 nəfər təşkil edib.

Bundan əlavə, cari ilin ilk altı ayında Abşeron dairəvi dəmir yolu ilə 5,1 milyondan çox sərnişin səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 17% çoxdur. Eyni zamanda, rayonlararası marşrutlar üzrə təxminən 289 min sərnişin daşınıb ki, bu seqmentdə də illik artım 17% təşkil edib.

# Təyyarədə bu səhvi etməyin

***Son illər hava nəqliyyatı ilə səyahət edənlərin sayı artdıqca, təyyarə salonlarında baş verən oğurluq halları da daha çox müzakirə olunmağa başlayıb. Əgər əvvəllər sərnişinlər əsasən qeydiyyata verilən baqajın itməsindən narahat olurdularsa, indi təhlükə birbaşa əl yükünə də yönəlib. Xüsusilə qiymətli əşyaların saxlanıldığı çantaların uçuş zamanı oğurlanması və ya içərisindəki pulların, zinət əşyalarının yoxa çıxması ilə bağlı şikayətlər artmaqdadır.***



## Təlimat

■ **Mövzu ilə bağlı jurnalist və səyyah Azər Qərib diqqətçəkən açıqlama verərək sərnişinləri daha ehtiyatlı olmağa çağırıb.** Onun sözlərinə görə, artıq bir çox aviaşirkətlər uçuş başlamazdan əvvəl salon daxilində itən şəxsi əşyalara görə məsuliyyət daşımadıqlarını xüsusi elanlarla sərnişinlərin diqqətinə çatdırırlar. Bu isə təsadüfi addım deyil.

A.Qərib bildirir ki, əvvəllər belə xəbərdarlıqlar demək olar ki, səsləndirilmirdi. İndi isə bunun əsas səbəbi təyyarələrdə oğurluq hallarının çoxalmasıdır. Onun sözlərinə görə, peşəkar oğrular adi sərnişin kimi bilet alaraq müxtəlif istiqamətlərə uçurlar. Onlar uçuş zamanı ətrafdakı insanları diqqətlə izləyir, hansı sərnişinin qiymətli əşya daşıdığını davranışından müəyyən etməyə çalışırlar.

"Kim tez-tez ayağa qalxıb çantasını yoxlayırsa, kim əl yükünü daim nəzarətdə saxlamağa çalışırsa, həmin şəxs oğrular üçün maraq obyektinə çevrilə bilər. Hətta sərnişinin geyimi, istifadə etdiyi əşyalar və ümumi görünüşü də onun maddi imkanları barədə müəyyən təsəvvür yaradır", - deyə A. Qərib qeyd edib.

Səyyahın sözlərinə görə, insanların çoxu qiymətli əşyalarını qeydiyyata verilən baqaja qoymaqdan çəkinir və daha təhlükəsiz hesab etdikləri üçün onları əl yükündə saxlayaraq baş üzərindəki dolablara yerləşdirirlər. Lakin məhz bu seçim bəzi hallarda oğruların işini asanlaşdırır. A.Qərib bununla bağlı tanışının yaşadığı hadisəni də danışıb. O bildirib ki, həmin şəxs özü ilə böyük məbləğdə nağd pul aparırmış. Pulu zərfə qoyaraq çantasına yerləşdirib və çantanı salonun yuxarı hissəsindəki baqaj bölməsinə qoyub. Uçuş boyu bir neçə dəfə ayağa qalxaraq çantasını yoxlaması isə oğruların diqqətini cəlb edib.

Təyinat məntəqəsinə çatdıqdan sonra məlum olub ki, zərfin içindəki pullar oğurlanıb. Onların yerinə isə eyni qalınlıqda adi kağız parçaları qoyulub. Hadisə onu göstərir ki, oğrular qısa zaman ərzində çantanı açaraq heç kimin diqqətini çəkmədən planlarını həyata keçirə biliblər.

Mütəxəssislər də hesab edirlər ki, hava limanlarında və təyyarələrdə təhlükəsizlik sistemləri əsasən uçuş təhlükəsizliyini təmin etməyə yönəlib. Sərnişinlərin şəxsi əşyalarının qorunması isə böyük ölçüdə onların öz məsuliyyətində qalır. Buna görə də xüsusilə pul, zinət əşyaları, sənədlər, bank kartları və elektron cihazlar kimi qiymətli əşyaların hər zaman sərnişinin yanında olması tövsiyə edilir.

Ekspertlər bildirirlər ki, uçuş zamanı baş üzərindəki dolablara yerləşdirilən çantaları tez-tez yoxlamaq da əks effekt verə bilər. Belə davranış çantada qiymətli əşyanın olduğunu nümayiş etdirə və cinayətkarların diqqətini həmin sərnişinə yönəldə bilər. Mütəxəssislər sərnişinlərə bir neçə sadə qaydaya əməl etməyi də tövsiyə edirlər. Onların fikrincə, böyük məbləğdə nağd pul daşımamaq, qiymətli əşyaları kiçik çiyin və ya bel çantasında saxlamaq, pasport, pul kisəsi və bank kartlarını uçuş boyu daim nəzarətdə saxlamaq, baş üzərindəki dolaba yalnız zəruri olmayan əşyaları yerləşdirmək daha məqsədəuyğundur.

■ **Məsələyə münasibət bildirən turizm eksperti Ceyhun Aşurov isə hesab edir ki, təyyarələrdə şəxsi əşyaların oğurlanması halları geniş yayılmış və ya kütləvi xarakter alan problem kimi qiymətləndirilməməlidir.** Onun sözlərinə görə, belə hadisələr istisna hallarda baş verə bilər və sərnişinlər panikaya düşmək əvəzinə şəxsi əşyalarına diqqətlə yanaşmalıdırlar.

"Cəmiyyət arasında bu cür xəbərlər narahatlıq yaratsa da, mən bunun kütləvi xarakter alacağına inanmıram. Adətən, təyyarədə hər bir sərnişin əl yükünü öz oturduğu yerin üzərindəki baqaj bölməsinə yerləşdirir və enişdən sonra da həmin çantanı götürərək təyyarəni tərk edir. Ona görə də belə halların geniş miqyas alması inandırıcı görünmür", - deyə ekspert bildirib. C.Aşurovun fikrincə, uçuş zamanı şəxsi əşyaların təhlükəsizliyinə görə əsas məsuliyyət sərnişinin öz üzərinə düşür: "Burada ən vacib məqam diqqətli olmaqdır. Nə ekipaj üzvləri, nə də aviaşirkət hər bir sərnişinin çantasına fərdi nəzarət edə bilər. Hər kəs öz əşyasını özü diqqətdə saxlamalıdır. Xüsusilə pul, sənədlər və digər qiymətli əşyalar daim nəzarətdə olmalıdır".

Ekspert qeyd edib ki, oğurluq iddiaları səsləndirilərkən onların sübutlarla təsdiqlənməsi də vacibdir: "Kiminsə əşyasının itdiyini deməsi hələ həmin əşyanın oğurlandığı anlamına gəlmir. Ola bilər ki, əşya başqa səbəbdən itib və ya sadəcə yerini səhv salıb. Buna görə də hər bir belə iddiaya ehtiyatla yanaşmaq lazımdır. Digər tərəfdən, kiminsə qəsdən başqa sərnişinin çantasını açaraq oradan nəsə götürməsi çox nadir rast gəlinən haldır. Çünki bunu edən şəxs özü də ciddi riskə gedir. Eləcə də əsassız oğurluq iddiası irəli sürmək də məsuliyyət yaradan məsələdir".

*“*

*Kim tez-tez ayağa qalxıb çantasını yoxlayırsa, kim əl yükünü daim nəzarətdə saxlamağa çalışırsa, həmin şəxs oğrular üçün maraq obyektinə çevrilə bilər*

*Təyyarələrdə şəxsi əşyaların oğurlanması halları geniş yayılmış və ya kütləvi xarakter alan problem kimi qiymətləndirilməməlidir*

✍ **Sevinc**

# Qızılın parıltısı niyə zəiflədi?

***İlin əvvəlində rekord həddə yüksələn qızıl qiymətləri son aylarda nəzərəçarpacaq dərəcədə ucuzlaşıb. Bir vaxtlar investorların əsas "təhlükəsiz limanı" hesab olunan qiymətli metal hazırda ciddi korreksiya mərhələsindən keçir. Bununla belə, analitiklər bu enişi uzunmüddətli trendin sonu deyil, bazarın tarazlaşması kimi qiymətləndirirlər.2026-cı ilin yanvarında qızılın bir unsiyasının qiyməti 5 500 dollardan yuxarı qalxaraq tarixi rekord yeniləmişdi. Hazırda isə qiymətlər həmin zirvədən təxminən 25-26 faiz aşağı səviyyədədir və 4 100 dollar ətrafında ticarət olunur.***



## İstehlak

Mütəxəssislər hesab edirlər ki, bu qədər qısa müddətdə baş verən ucuzlaşmanın arxasında bir neçə mühüm amil dayanır. Ən vacib səbəblərdən biri ABŞ-də pul-kredit siyasəti ilə bağlı gözləntilərin dəyişməsidir. İnvestorlar əvvəlcə faiz dərəcələrinin endiriləcəyini gözləsələr də, inflyasiya risklərinin yenidən artması bu proqnozları dəyişib. Faizlərin yüksək qalacağı ehtimalı gücləndikcə gəlir gətirməyən aktiv olan qızıla maraq zəifləyib. Əvəzində investorlar istiqraz və digər gəlirli maliyyə alətlərinə üstünlük verməyə başlayıblar.

Digər mühüm faktor ABŞ dollarının möhkəmlənməsidir. Dollar bahalaşdıqca qızıl xarici alıcılar üçün daha baha başa gəlir və qlobal tələb zəifləyir. Tarixən də dollarla qızıl arasında əks istiqamətli əlaqə müşahidə olunur. Ekspertlər bildirirlər ki, ilin əvvəlində qiymətlərin rekord həddə çatması fonunda bazarda spekulyativ alışlar da xeyli artmışdı. İndi isə həmin investorların böyük hissəsi mənfəəti reallaşdırmaq üçün satışa üstünlük verir. Bu da qiymətlər üzərində əlavə təzyiq yaradır.

Dünya Qızıl Şurasının son hesabatına görə, hazırkı qiymətlər artıq makroiqtisadi şəraitə böyük ölçüdə uyğunlaşmağa başlayıb. Hesabatda bildirilir ki, iqtisadi artımın sabit qalması, inflyasiyanın tədricən səngiməsi və mərkəzi bankların ehtiyatlı siyasəti fonunda qızılın yaxın aylarda daha çox dar qiymət diapazonunda hərəkət etməsi gözlənilir. Bununla yanaşı, analitiklər hesab edirlər ki, qlobal geosiyasi risklərin yenidən artması, iqtisadi qeyri-müəyyənliyin güclənməsi və ya mərkəzi bankların faiz endirimlərinə başlaması qızılı yenidən bahalaşdıra bilər. Belə dövrlərdə investorlar yenidən "təhlükəsiz liman" aktivlərinə üz tuturlar. Digər tərəfdən, mərkəzi bankların qızıl alışları da bazar üçün mühüm dəstək olaraq qalır. Son illərdə bir çox ölkənin mərkəzi bankları ehtiyatlarını diversifikasiya etmək məqsədilə böyük həcmdə qızıl almağa davam edir. Dünya Qızıl Şurası hesab edir ki, qiymətlər daha da aşağı düşərsə, həm mərkəzi banklar, həm də fiziki alıcılar bazara daha aktiv daxil ola bilər ki, bu da enişin dərinləşməsinin qarşısını ala bilər. Nəticə etibarilə, son aylardakı ucuzlaşma qızıl bazarında uzun sürən bahalaşmadan sonra baş verən təbii korreksiya kimi qiymətləndirilir. Qısa müddətdə qiymətlər üzərində təzyiq qalmaqda davam etsə də, qlobal iqtisadi və geosiyasi risklər tam aradan qalxmadığı üçün qızılın strateji investisiya aləti kimi əhəmiyyəti hələ də yüksək olaraq qalır. Bir çox beynəlxalq analitik hesab edir ki, bazarın növbəti istiqaməti əsasən ABŞ Mərkəzi Bankının faiz qərarlarından, dolların dinamikasından və dünya iqtisadiyyatındakı risklərin səviyyəsindən asılı olacaq.

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Xalid Kərimli bildirib ki, qızılın ucuzlaşması bu ilin əvvəlindən müşahidə olunur və bunun əsas səbəblərindən biri qlobal bazarlarda dəyişən gözləntilərdir. Onun sözlərinə görə, müharibələrin təsiri ilə neftin qiymətinin kəskin bahalaşması dünya üzrə inflyasiya risklərini artırıb.**

"Qızılın qiyməti neftdən birbaşa asılı deyil. Lakin neft bahalaşdıqca istehsal və daşınma xərcləri artır, nəticədə inflyasiya təzyiqləri güclənir. İnflyasiya yüksəldikdə isə mərkəzi banklar, xüsusilə ABŞ Federal Ehtiyat Sistemi faiz dərəcələrini artırmağa və ya yüksək səviyyədə saxlamağa üstünlük verir", - deyə iqtisadçı bildirib. X.Kərimlinin sözlərinə görə, məhz bu amil qızıl bazarına birbaşa təsir göstərir. Çünki qızıl faiz və ya dividend gətirən investisiya aləti deyil. Faiz gəlirləri yüksəldikcə investorlar vəsaitlərini istiqrazlar və digər gəlirli aktivlərə yönəldirlər ki, bu da qızıla tələbatı azaldır. İqtisadçı qeyd edib ki, son həftələrdə ABŞ Federal Ehtiyat Sisteminin faiz endirimlərini yaxın dövrdə həyata keçirməyəcəyi barədə açıqlamaları da qızılın qiymətinə əlavə təzyiq göstərib.

Onun fikrincə, neft qiymətləri əvvəlki pik səviyyədən geri çəkilsə də, hələ də yüksək olaraq qalır və qlobal inflyasiyanın yaxın dövrdə ciddi şəkildə azalacağına dair bazarlarda güclü gözlənti formalaşmayıb. "Bu səbəbdən hazırkı mərhələdə həm bahalaşma, həm də ucuzlaşma ehtimalı qalır. Qızıl bazarı qlobal siyasi və iqtisadi xəbərlərə çox həssasdır və istənilən mühüm hadisə qiymətlərin istiqamətini dəyişə bilər", - deyə o vurğulayıb. X.Kərimli xatırladır ki, son illərdə geosiyasi gərginlik, müharibələr və sanksiyalar fonunda bir sıra ölkələr qızıl ehtiyatlarını əhəmiyyətli dərəcədə artırıblar.

"Çin, Hindistan, Rusiya, Braziliya, Türkiyə və Azərbaycan kimi ölkələr ehtiyatlarını diversifikasiya etmək, dolların mümkün dəyər itkisi və sanksiya risklərindən qorunmaq məqsədilə qızıl alışlarını artırmışdılar. Hazırda isə vəziyyət müəyyən qədər dəyişib. Dollar möhkəmlənib, avroya nisbətdə də güclənib. Qızıl dollarla qiymətləndirildiyi üçün bu proses onun qiymətinin aşağı düşməsinə təsir göstərir", - deyə iqtisadçı bildirib.

Bununla yanaşı, o hesab edir ki, uzunmüddətli perspektivdə qızılın mövqeyi hələ də güclü olaraq qalır. "Bir çox beynəlxalq analitik şirkət qızılın fundamental göstəricilərinin sağlam olduğunu bildirir. Hazırda qiymətlərin uzunmüddətli və davamlı enişini şərtləndirəcək ciddi səbəblər görünmür", - deyə X.Kərimli əlavə edib.

*“*

*Müharibələrin təsiri ilə neftin qiymətinin kəskin bahalaşması dünya üzrə inflyasiya risklərini artırıb*

✍ **Sevinc**

ədib

***Müasir Azərbaycan poeziyasında milli ruhu, mənəvi dəyərləri və insan taleyini poetik düşüncə ilə birləşdirən müəlliflərdən biri də Zaur Ustacdır. Onun şeirləri yalnız duyğuların ifadəsi deyil, həm də cəmiyyətə ünvanlanan mənəvi çağırışdır. Şairin yaradıcılığında vətən sevgisi, ana obrazı, insanın daxili aləmi, milli kimlik və mənəvi kamillik kimi mövzular xüsusi yer tutur. Bu baxımdan Zaur Ustac poeziyası həm milli, həm də ümumbəşəri məzmun daşıyan poetik nümunələr toplusu kimi diqqəti cəlb edir. Bu mövzular yalnız poetik təsvir vasitəsi deyil, həm də müəllifin dünyagörüşünün, həyat fəlsəfəsinin və vətəndaş mövqeyinin ifadəsi kimi çıxış edir. Zaur Ustacın poeziyası müasir dövrün sosial-mədəni reallıqları ilə milli ədəbi ənənələrin üzvi vəhdətini əks etdirir.***

# Zaur Ustac poeziyasının mövzu və ideya xüsusiyyətləri



Onun şeirlərində keçmişə ehtiram, bu günün problemlərinə həssas münasibət və gələcəyə nikbin baxış bir-birini tamamlayır. Şair oxucunu təkcə emosional təsir altında saxlamır, həm də onu milli-mənəvi dəyərlər, vətəndaşlıq mövqeyi, insanlıq prinsipləri və mənəvi məsuliyyət haqqında düşünməyə sövq edir. Məhz bu xüsusiyyətlər onun yaradıcılığını müasir Azərbaycan poeziyasında fərqləndirən əsas cəhətlərdəndir. Zaur Ustacın şeirlərində diqqəti cəlb edən əsas xüsusiyyətlərdən biri də poetik fikrin səmimiliyi və təbiiliyidir. Müəllif mürəkkəb bədii konstruksiyalara deyil, sadə, anlaşıqlı və obrazlı ifadə vasitələrinə üstünlük verir. Bu isə onun əsərlərinin müxtəlif yaş və peşə qruplarından olan oxucular tərəfindən maraqla qarşılanmasına şərait yaradır.

Şair xalq danışıq dilinin imkanlarından, milli folklor elementlərindən və klassik Azərbaycan poeziyasının bədii ənənələrindən yaradıcı şəkildə istifadə etməklə özünəməxsus üslub formalaşdırmışdır. Müasir ədəbiyyatşünaslıq baxımından Zaur Ustac yaradıcılığının tədqiqi həm nəzəri, həm də praktik əhəmiyyət daşıyır. Onun poeziyasının mövzu və ideya xüsusiyyətlərinin araşdırılması müasir Azərbaycan poeziyasında gedən inkişaf meyillərini müəyyənləşdirməyə, milli bədii düşüncənin istiqamətlərini qiymətləndirməyə və şairin ədəbi prosesdə tutduğu mövqeyi daha dəqiq müəyyən etməyə imkan verir. Zaur Ustac poeziyasının ən aparıcı mövzularından biri vətəndir. Şair vətəni yalnız coğrafi məkan kimi deyil, xalqın yaddaşı, tarixi və mənəvi varlığı kimi təqdim edir. Onun şeirlərində Azərbaycan torpağına bağlılıq, milli birlik və xalqın gələcəyinə inam güclü şəkildə hiss olunur. Vətən mövzusu şair üçün sadəcə tərənnüm obyekti deyil, həm də vətəndaş məsuliyyətinin ifadəsidir. Onun şeirlərində torpağa sevgi ilə yanaşı, onu qorumağın vacibliyi də vurğulanır. Şair oxucunu milli dəyərlərə sahib çıxmağa, keçmişi unutmamağa və gələcək qarşısında məsuliyyət hiss etməyə çağırır.

Zaur Ustac yaradıcılığında ana mövzusu xüsusi emosional yük daşıyır. Ana onun poeziyasında yalnız ailənin dayağı deyil, həm də mərhəmətin, şəfqətin və mənəvi saflığın rəmzidir. Şair ana obrazı vasitəsilə insanın ən təmiz duyğularını ifadə edir. Bu mövzuda yazılmış şeirlərində səmimilik və daxili istilik üstünlük təşkil edir. Ana həm övladın ilk müəllimi, həm də milli-mənəvi dəyərlərin daşıyıcısı kimi təqdim olunur. Beləliklə, ana obrazı fərdi məna çərçivəsindən çıxaraq ümummilli məna qazanır. Şairin poeziyasında insanın mənəvi dünyası geniş şəkildə əks olunur. O, insanın vicdanı, ədalət hissi, xeyirxahlığı və cəmiyyət qarşısında məsuliyyəti haqqında düşüncələrini poetik dillə ifadə edir. Zaur Ustac üçün insanın böyüklüyü onun maddi imkanları ilə deyil, mənəvi keyfiyyətləri ilə ölçülür.

Şair yaradıcılığında cəmiyyətdə rast gəlinən laqeydlik, ədalətsizlik və mənəvi aşınma hallarına da toxunur. Lakin o, ümidsizlik yaratmır; əksinə, insanın özünü dəyişməsi və yaxşılığa yönəlməsi ideyasını ön plana çəkir. Zaur Ustac poeziyasında təbiət canlı və duyğulu şəkildə təsvir edilir. Təbiət mənzərələri şairin daxili aləmi ilə vəhdətdə təqdim olunur. Bahar, yağış, dağ, çay və digər təbiət obrazları insan ruhunun müxtəlif hallarını ifadə edən poetik vasitələrə çevrilir. Məhəbbət mövzusu da onun yaradıcılığında mühüm yer tutur. Bu məhəbbət yalnız romantik hiss kimi deyil, insana, həyata və gözəlliyə sevgi kimi təqdim edilir. Şair məhəbbəti insanı saflaşdıran və mənən yüksəldən qüvvə hesab edir. Zaur Ustac poeziyasının başlıca ideyası mənəvi kamillikdir. Şair insanın öz vicdanına sadiq qalmasını, xeyirxahlığı və ədaləti həyat prinsipi seçməsini vacib sayır.

Şairin üslubunda lirizm, səmimilik və düşüncə dərinliyi bir-birini tamamlayır. Bu xüsusiyyətlər onun poeziyasına həm estetik gözəllik, həm də mənəvi təsir gücü qazandırır. Zaur Ustacın "Vətən" şeirində vətən sevgisi yüksək emosional çalarlarla ifadə olunur. Şair vətəni insanın mənəvi dayağı və kimliyinin ayrılmaz hissəsi kimi təqdim edir. Şeirdə vətənə bağlılıq təkcə hiss kimi deyil, vətəndaşlıq borcu kimi də dəyərləndirilir. "Ana" şeirində müəllif ana obrazını müqəddəslik, mərhəmət və sonsuz fədakarlıq rəmzi kimi təqdim edir. Şeirin əsas ideyası anaya sevgi və ehtiramın insanın mənəvi kamilliyinin göstəricisi olmasıdır. Şəhid baş leytenant Fərid Güloğlan oğlu Əhmədova həsr etdiyi "Şəhidim" şeirində Vətən uğrunda canından keçən qəhrəmanların əziz xatirəsi böyük ehtiramla yad edilir. Şair şəhidliyi xalqın qəhrəmanlıq salnaməsinin ayrılmaz hissəsi kimi təqdim edir və gənc nəslə vətənpərvərlik ruhu aşılayır. "Azərbaycan" şeirində müəllif doğma yurdun təbiətini, tarixini və milli ruhunu poetik boyalarla təsvir edir. Şeirdə Azərbaycan xalqının birliyi, dövlətçilik ənənələri və gələcəyə inam əsas ideya xəttini təşkil edir. Bu nümunələr göstərir ki, Zaur Ustacın poeziyasında vətən, ana, milli-mənəvi dəyərlər və insan amili aparıcı mövzulardır.

Zaur Ustacın ən təsirli şeirlərindən biri olan "Can ay ana" əsəri şəhidlik mövzusuna həsr edilmişdir. Şeir Azərbaycan Milli Qəhrəmanı Polad Həşimovun xatirəsinə ithaf olunmuşdur. Əsərdə ana obrazı təkcə bir insanın anası kimi deyil, bütün şəhid analarının ümumiləşdirilmiş simvolu kimi təqdim edilir. Şair təkrar olunan "Can ay ana" müraciəti ilə əsərin emosional təsirini gücləndirir, ananın kədəri ilə xalqın qürur hissini vəhdətdə təqdim edir. Əsərin əsas ideyası Vətən uğrunda canından keçən insanların ölməzliyi və şəhid analarına sonsuz ehtiram hissidir. Zaur Ustacın "Sevin ki, seviləsiz" kitabında toplanmış şeirlərdə insanpərvərlik, həyat sevgisi və mənəvi saflıq əsas ideya xəttini təşkil edir. "Otuz ildir əldə qələm" kitabı müəllifin uzun illər ərzində formalaşmış poetik dünyagörüşünü əks etdirir. Burada vətənpərvərlik, milli kimlik, zaman, insan taleyi və yaradıcılıq məsuliyyəti kimi mövzular geniş yer alır.

Bu nümunələrin təhlili göstərir ki, Zaur Ustac poeziyasının əsas ideya istiqamətləri vətənə sədaqət, milli-mənəvi dəyərlərin qorunması, şəhidlik zirvəsinin ucalığı, ana məhəbbətinin müqəddəsliyi və humanizm prinsipləridir. Zaur Ustac poeziyası müasir Azərbaycan ədəbiyyatında milli ruhu, vətən sevgisini və mənəvi dəyərləri yaşadan əhəmiyyətli yaradıcılıq nümunələrindəndir. Onun şeirlərində vətən, ana, insan, məhəbbət və mənəvi kamillik mövzuları vahid ideya xətti ətrafında birləşir. Sadə, səmimi və obrazlı poetik dili isə bu yaradıcılığı geniş oxucu auditoriyası üçün təsirli və yaddaqalan edir. Şair hər bir mövzuya yalnız emosional yanaşmır, eyni zamanda onu fəlsəfi və mənəvi müstəvidə qiymətləndirərək oxucuda düşünmək, nəticə çıxarmaq və öz mövqeyini müəyyənləşdirmək ehtiyacı yaradır. Zaur Ustacın poeziyasında vətən anlayışı yalnız doğma torpağa məhəbbət hissi ilə məhdudlaşmır.

Bu anlayış milli kimliyin qorunması, tarixi yaddaşa hörmət, dövlətçilik düşüncəsi və gələcək nəsillərin milli ruhda tərbiyə olunması ideyaları ilə sıx bağlıdır. O, xalq dilinin zəngin imkanlarından, milli folklor motivlərindən, klassik Azərbaycan poeziyasının bədii ənənələrindən yaradıcı şəkildə istifadə edərək özünəməxsus poetik üslub formalaşdırmışdır. Bu üslub həm peşəkar ədəbiyyatşünasların, həm də geniş oxucu kütləsinin marağına səbəb olur və onun yaradıcılığının uzunömürlü olmasını təmin edən əsas amillərdən biri kimi çıxış edir. Şairin əsərləri yalnız bədii-estetik baxımdan deyil, həm də mənəvi, sosial və tərbiyəvi aspektdən dəyərli mənbə hesab oluna bilər. Zaur Ustac poeziyası mövzu zənginliyi, ideya dərinliyi, milli ruhu, humanist məzmunu və özünəməxsus bədii üslubu ilə müasir Azərbaycan ədəbiyyatında xüsusi yer tutur.

✍ ***Həcər Atakişiyeva,***
***"Yazarlar" jurnalının redaktoru,***
***ədəbiyyatşünas-tənqidçi***

# Turistlər azalıb, ancaq...

***Bu** ilin ilk aylarına dair açıqlanan rəsmi statistika Azərbaycanın turizm sektorunda maraqlı və ilk baxışdan ziddiyyətli mənzərə ortaya qoyur. Bir tərəfdən ölkəyə gələn əcnəbilərin sayı azalır, turistlərin Azərbaycanda xərclədiyi vəsait ötən illə müqayisədə yüz milyonlarla manat aşağı düşür. Digər tərəfdən isə turagent və turoperatorların gəlirləri rekord səviyyədə artır. Bu göstəricilər sektorun yalnız turist axınından deyil, həm də xidmət bazarındakı struktur dəyişikliklərindən təsirləndiyini göstərir.*



“

*Mövcud vəziyyəti hələlik uzunmüddətli mənfi tendensiya kimi qiymətləndirmək düzgün deyil*

## Turizm

Bu ilin yanvar-may aylarında Azərbaycana 186 ölkədən 871,7 min nəfər əcnəbi və vətəndaşlığı olmayan şəxs səfər edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz azdır. Turistlərin ölkədə çəkdiyi ümumi xərclər isə 943,9 milyon manat təşkil edib. Beləliklə, bir il ərzində turist xərcləri 280,8 milyon manat və ya 22,9 faiz azalıb.

Statistika göstərir ki, turistlərin əsas xərcləri ənənəvi olaraq nəqliyyat, yerləşmə və qidalanma xidmətlərinə yönəlib. Lakin bütün əsas istiqamətlər üzrə geriləmə qeydə alınıb. Nəqliyyat xidmətlərinə çəkilən xərclər 430,9 milyon manat olmaqla 24,3 faiz, hotellərə və digər yerləşmə xidmətlərinə xərclər 32 faiz, iaşə obyektlərinə çəkilən vəsait isə 20,1 faiz azalıb. Mədəniyyət, əyləncə və digər xidmət sahələrində də analoji azalma müşahidə edilir. Ən çox vəsait xərcləyən turistlər yenə də Rusiyadan gəlib. Onların Azərbaycanda qoyduğu vəsait 283,5 milyon manat olub. Türkiyə ikinci yerdə qərarlaşıb. Ən diqqətçəkən dəyişiklik isə Hindistan bazarında baş verib. Bu ölkədən gələn turistlərin xərcləri ötən illə müqayisədə təxminən dörd dəfə azalaraq 52,7 milyon manata düşüb. Son illər Azərbaycanın əsas hədəf bazarlarından biri hesab olunan Hindistan üzrə belə kəskin geriləmə sektor üçün ciddi siqnal hesab oluna bilər. Regionlar üzrə statistika da maraqlı mənzərə yaradır. Körfəz ölkələrindən gələn turistlərin sayı 31,6 faiz azalıb. Halbuki məhz bu bazar son illərdə yüksək xərcləmə qabiliyyəti ilə seçilirdi. Bunun əvəzində Avropa İttifaqı ölkələrindən gələn turistlərin sayı 13,3 faiz artıb. Yanvar-aprel aylarında Avropadan Azərbaycana 60 mindən çox turist səfər edib ki, bu da ötən ilin eyni dövründən 8 faiz çoxdur.

Qərbi Avropa istiqamətində xüsusilə Almaniya, Böyük Britaniya, İtaliya, Belçika və Portuqaliya bazarlarında artım qeydə alınıb. Şərqi Avropada isə Polşa, Macarıstan, Rumıniya və Çexiyadan gələn turistlərin sayında yüksək artım müşahidə olunub. Bu dinamika göstərir ki, Azərbaycanın turizm bazarında coğrafi diversifikasiya prosesi davam edir və Avropa bazarı getdikcə daha böyük əhəmiyyət qazanır.

Turist axınının azalmasına baxmayaraq, sektorun digər seqmentində tam fərqli mənzərə formalaşıb. 2026-ci ildə Azərbaycanda fəaliyyət göstərən turagent və turoperatorların ümumi gəlirləri 222,7 milyon manata çataraq əvvəlki illə müqayisədə 33,8 faiz artıb. Xidmətlərin istehsalına çəkilən xərclər də artsa da, gəlirlər xərcləri 51 milyon manat üstələyib.Bu dövrdə turagent və turoperatorların sayı 381-dən 434-ə yüksəlib. Sektorda çalışan işçilərin sayı isə 26 faiz artaraq 2 687 nəfərə çatıb. Bu, turizm biznesində investisiya və fəaliyyət genişlənməsinin davam etdiyini göstərir. Mövcud statistika onu deməyə əsas verir ki, Azərbaycanda turizm sektoru transformasiya mərhələsinə daxil olub. Bir tərəfdən ənənəvi bazarlardan turist axını zəifləyir, digər tərəfdən isə Avropa kimi yeni bazarlarda artım müşahidə edilir. Bununla yanaşı, turizm şirkətlərinin gəlirlərinin artması daxili turizm paketlərinin genişlənməsi, xaricə təşkil olunan səfərlərin çoxalması, xidmət qiymətlərinin yüksəlməsi və biznes modelinin dəyişməsi ilə əlaqədar ola bilər. Bununla belə, turistlərin ölkədə xərclədiyi vəsaitin 23 faizə yaxın azalması diqqətdən kənarda qalmamalıdır. Turizmin iqtisadi effektini müəyyən edən əsas göstəricilərdən biri məhz turistlərin ölkədə buraxdığı vəsaitdir. Qarşıdakı dövrdə əsas məqsəd təkcə turist sayını artırmaq deyil, həm də Azərbaycana gələn qonaqların daha uzun müddət qalmasını, daha çox xidmət və məhsul istehlak etməsini təmin etmək olmalıdır.

Bu isə turizm məhsullarının şaxələndirilməsi, regionlarda yeni marşrutların yaradılması, tədbir turizminin genişləndirilməsi və yüksək gəlirli bazarlara yönəlmiş marketinq strategiyalarının gücləndirilməsini zəruri edir. Rəqəmlər göstərir ki, Azərbaycan turizmi hələ də inkişaf potensialını qoruyur. Növbəti mərhələdə uğur yalnız turist sayının artımı ilə deyil, hər turistin ölkə iqtisadiyyatına gətirdiyi əlavə dəyərin yüksəldilməsi ilə ölçüləcək.

■ **Mövzu ilə bağlı Azərbaycan Hotellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri Samir Dübəndi bildirib ki, mövcud statistika bir neçə amilin eyni vaxtda təsirinin nəticəsidir.** Onun sözlərinə görə, ilk növbədə bu ilin yanvar-may aylarında Azərbaycana gələn əcnəbilərin ümumi sayı azalıb. Bununla yanaşı, daha yüksək xərcləmə potensialına malik bazarlardan, xüsusilə Körfəz ölkələri və Hindistandan turist axınının zəifləməsi ümumi xərclərə ciddi təsir göstərib. ”Bundan əlavə, turistlərin davranışında da dəyişiklik var. Səfərlər daha qısa, daha qənaətcil və daha seçici xarakter alır”, - deyə o bildirib.

Ekspert qeyd edib ki, xərclərdəki azalma yalnız turist sayının azalması ilə izah oluna bilməz. “Əgər ölkəyə gələn turistlərin sayı 11 faiz azalıbsa, xərclərin 22,9 faiz azalması onu göstərir ki, bir turistə düşən orta xərc də aşağı düşüb”, - deyə o bildirib.

Onun sözlərinə görə, ən böyük azalma nəqliyyat, yerləşmə və qidalanma xidmətlərində qeydə alınıb. Bu isə turistlərin ölkədə daha qısa müddət qalmasına, daha sərfəli yerləşmə və qidalanma variantlarını seçməsinə, həmçinin əlavə xidmətlərə əvvəlki illərlə müqayisədə daha az vəsait xərcləməsinə işarə edir. Samir Dübəndi hesab edir ki, mövcud vəziyyəti hələlik uzunmüddətli mənfi tendensiya kimi qiymətləndirmək düzgün deyil. Onun sözlərinə görə, turizm mövsümi sahədir və yay ayları, tədbir turizmi, işgüzar səfərlər, eləcə də yeni aviareyslər ilin ikinci yarısında göstəricilərə müsbət təsir göstərə bilər. “Bununla belə, bu rəqəmlər bazar üçün ciddi işarədir. Məqsəd yalnız turist sayını artırmaq deyil, onların ölkədə qalma müddətini və xərclərini də yüksəltmək olmalıdır”, - deyə ekspert vurğulayır.

*✍ Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin MƏĞLUBİYYƏTİ



Dünya çempionatında 1/8 final mərhələsinin matçları keçirilib. Son Avropa çempionu, DÇ-nin əsas favoritlərindən İspaniya Kriştianu Ronaldonun kapitanı olduğu Portuqaliya millisi ilə üz-üzə gəlib. İspaniya 90+1-ci dəqiqədə hesabı açıb. Mikel Merino fərqlənib. Portuqaliya Ronaldu üçün DÇ həyəcanı başa çatıb.

### Həftənin SƏFİRİ



Karen Qriqoryan Ermənistanın Pakistandakı səfiri təyin edilib. Bununla bağlı Ermənistan Prezidenti Vaaqn Xaçaturyan fərman imzalayıb. Pakistana yeni təyin olunmuş səfirin iqamətgahının Əbu-Dabi şəhərində olacağı bildirilir. K. Qriqoryan həm də Ermənistanın Birləşmiş Ərəb Əmirliklərindəki fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışır.

### Həftənin SƏFƏRİ



Fransa Prezidenti Emmanuel Makron 17 ildən sonra Suriyaya səfər edən ilk Fransa lideri kimi Dəməşqdə rəsmi görüşlər keçirib. Lakin səfərin siyasi gündəmindən daha çox, onun görüşlər boyunca günəş eynəyi taxması beynəlxalq mediada və sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Makron Dəməşqdə Suriya Prezidenti Əhməd əl-Şaraa ilə görüşüb, tarixi Əməvi məscidini ziyarət edib və onun şərəfinə təşkil olunan rəsmi şam yeməyində iştirak edib.

### Həftənin İMTİNASI



Ermənistan parlamentinin hazırkı spikeri Alen Simonyan yeni çağırış parlamentdə deputat mandatından imtina edəcək. Simonyan bu barədə brifinqdə məlumat verib. “Mən Baş nazir, həmçinin partiyanın rəhbərliyi ilə müzakirə etdim - mandatı götürməyəcəyəm və parlamentə deputat qismində gəlməyəcəyəm. İlk növbədə bir az istirahət etmək istəyirəm”, - Simonyan bildirib.

### Həftənin BƏYANATI



“Rusiya Prezidenti Vladimir Putin Ukraynadakı münaqişənin sona çatmasını istəyir”. Bunu ABŞ Prezidenti Donald Tramp bu barədə mətbuat konfransında bildirib. “Putin bunun bitməsini istəyir. Bunu sizə çox əminliklə deyə bilərəm. O, müharibəyə son qoymaq istəyir. Ukrayna da bunu istəyir. Biz isə danışıqlar aparırıq”, - deyə ABŞ lideri qeyd edib.

### Həftənin İFLASI



ABŞ-nin aşağıbüdcəli aviaşirkəti “Spirit Airlines” fəaliyyətini tam dayandırdıqdan sonra şirkətə məxsus onlarla təyyarə Arizona ştatındakı səhra hava limanlarında saxlanılır. Şirkətin parlaq sarı rəngli “Airbus A320” və “Airbus A321” təyyarələri quru iqlimə malik “Goodyear” və “Marana” hava limanlarına köçürülüb. Bildirilir ki, səhra şəraiti rütubətin az olması səbəbindən təyyarələrin paslanmasının qarşısını alır və uzunmüddətli saxlanma üçün əlverişlidir.

*✍ Azad Əliyev*

# Allergik xəstəliklərin gedişində üç kəskinləşmə dövrü var

**Allergik xəstəliklər ilin bütün fəsillərində müşahidə oluna bilər. Lakin bəzi allergik xəstəliklər mövsümi xarakter daşıyır və əsasən yaz, yay və payız aylarında kəskinləşir. Mövsümi allergiyanın səbəbi bitki tozcuqlarına qarşı yüksək həssaslıqdır. Tibdə həmin xəstəliyə pollinoz deyilir. Pollinoz, yəni “Pollen” latın sözüdür və “tozcuq” deməkdir.**

Bunu açıqlamasında Azərbaycan Tibb Universitetinin Allerqologiya və immunologiya kafedrasının müdiri, Əməkdar həkim, professor Lalə Allahverdiyeva deyib.

Professorun sözlərinə görə, xəstəliyin gedişində 3 kəskinləşmə dövrü var: ağacların çiçəklənməsi ilə bağlı yaz (fevral-mart-aprel-may), çəmən otlarının və taxıl bitkilərinin çiçəklənməsi ilə bağlı yay (may-iyun-iyul), alaq otları ilə əlaqədar olaraq payız dövrü (avqust-sentyabr-oktyabr). “Son illər ölkəmizdə müxtəlif ekzotik bitkilərin gətirilməsi ilə əlaqədar çiçəklənmə dövrü daha erkən başlayır. Buna görə də artıq fevral ayının 20-dən xəstələrin müraciətləri qeydə alınır. Azərbaycanda pollinozun inkişafı ağaclardan – palıd, fındıq ağacı, sərv ağacı, çinar, ağcaqayın, zeytun ağacı və s., çəmən otlarından - pişikquyruğu, tülküquyruğu, qaramuq və s., taxıllardan - yulaf, çovdar, arpa, buğda və s., alaq otlardan - yovşan, sirkan, günəbaxan, zəncirotu, ambroziya kimi bitkilərin tozcuqları ilə bağlıdır”, - deyə o bildirib. Lalə Allahverdiyeva qeyd edib ki, pollinoz xəstəliyi zamanı ən tipik klinik təzahür rinokonyunktival sindromdur, yəni burunun və gözlərin eyni zamanda allergik zədələnməsi, tənəffüs sisteminin bronxial astma kimi zədələnməsi, həzm sistemində (ürəkbulanma, qusma, qarın ağrısı, ishal), dəridə müxtəlif səpgilər, dermatit əlamətləri, angionevrotik ödem və övrə və s., mərkəzi sinir sisteminin zədələnməsi və digər orqanlarda kəskin allergik reaksiyaların baş verməsidir:

“Son illər allerqoloqlar pollinoz xəstəliyinin dəri formaları ilə daha tez-rez rastlaşırlar, yəni mövsümdə belə xəstələrin dərisində müxtəlif səpgilər, dermatit əlamətləri, övrə və kvinke ödemi müşahidə olunur. Onların çoxlarında rinokonyunktival və tənəffüs sistemi tərəfindən klinik əlamətlərin olmamasına baxmayaraq, dəri təzahürləri qeyd edilir. Xəstələr və bəzi həkimlər düşünmürlər ki, həmin əlamətlər bitkilərin çiçəklənməsi ilə əlaqədardır”.

Allergik xəstəliklərin kəskin respirator xəstəliklərlə oxşar simptomlara malik olduğunu qeyd edən mütəxəssis fikirlərinə belə davam edib: “Lakin onları bir-birindən fərqləndirən əlamətlər mövcuddur.

## GÜNÜN FOTOSU



Neymarın göz yaşları

“

## Qızılın parıltısı niyə zəiflədi?

**Xalid Kərimli,**
iqtisadçı-ekspert

Müharibələrin təsiri ilə neftin qiymətinin kəskin bahalaşması dünya üzrə inflyasiya risklərini artırıb.

▸▸ Səh. 7

## STATİSTİKA



■ **İlin ilk rübündə türk dövlətlərinin ümumi ticarət dövriyyəsi 326 milyard 11,55 milyon dollar təşkil edib ki, bu da 8,75 trilyon dollar həcmində olan qlobal ticarət dövriyyəsinin təxminən 3,73 faizinə bərabərdir.**

Türkiyə ən yüksək ticarət dövriyyəsinə malik olmaqla, 155 milyard 122 milyon dollar ilə liderlik edir. Macarıstan, Qazaxıstan və Özbəkistan isə müvafiq olaraq 87 milyard 445 milyon, 32 milyard 908 milyon və 18 milyard 23 milyon dollar ilə ticarət həyata keçirib.



▸▸ Səh. 6

# İmtahansonrası depressiya